Günəş Şərqdən doğur!
❒ № 197 (5718), 2022-ci il
Qiyməti 40 qəpik
# ŞƏRQ
Müstəqil İctimai-siyasi qəzet
www.sherg.az 28 oktyabr 2022-ci il (cümə)

## Quru sərhədləri yanvarın 1-nə qədər bağlı olacaq

### Xüsusi karantin rejiminin müddəti uzadılıb



**Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2023-cü il 1 yanvar saat 06:00-dək uzadılıb.**

Bu barədə Nazirlər Kabineti müvafiq qərar qəbul edib.

*Qeyd edək ki, bundan əvvəl bu müddət 2022-ci il 1 noyabr saat 06:00-dək olan dövrü əhatə edib.*



## Noyabr ayının ilk günlərində...

### Brüsseldə Azərbaycan-Ermənistan delimitasiya komissiyasının iclası keçiriləcək

**Gələn ay Brüsseldə Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası üzrə komissiyanın iclası keçiriləcək.**

Bunu xarici işlər nazirinin müavini Elnur Məmmədov deyib.

"Noyabr ayının ilk günlərində Brüssel şəhərində delimitasiya üzrə komissiyaların iclası keçiriləcək. Həmin iclasdan sonra delimitasiya komissiyasının katibliyi tərəfindən ictimaiyyətə açıqlama veriləcək",- deyə Elnur Məmmədov bildirib.

*Qeyd edək ki, bir müddət əvvəl Ermənistan baş nazirinin müavini Miqer Qriqoryanın ofisi belə bir görüşün keçiriləcəyi barədə məlumat yayıb.*

# "Ermənistana təklif etdik ki, beş rayonu qaytar"

### Putin: "Razılaşmadılar, bu da bugunki vəziyyətə gətirib çıxardı"




**Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi lazımdır.**

Bunu Rusiya Prezidenti Vladimir Putin Valday Diskussiya klubunun plenar iclasında bildirib.

"Sülh müqaviləsi əlbəttə ki, lazımdır. Bizim mövqeyimiz sülh nizamlanmasını dəstəkləməkdən ibarətdir. Eləcə də sərhədlərin delimitasiyasını, sərhəd məsələsinin tam nizamlanmasını dəstəkləyirik. Biz bunun tərəfdarıyıq.

(Səh.3)



## Metroda gediş haqları artırılmayacaq

### Tarif Şurasına müraciət edilməyib

**Bakı metropoliteni metroda gediş haqlarının bahalaşması ilə bağlı Tarif Şurasına müraciət etməyib.**

(Səh.9)

## Pulu kart hesabından oğurlanıb

### Şəhid Səbuhi Əhmədovun qardaşına qarşı dələduzluq edilib



**"Şəhid Səbuhi Əhmədovun qardaşı Sənan Əhmədova qarşı fişinq halı olub, pulu kart hesabından oğurlanıb".**

Bu barədə texnobloger Fərid Pərdəşünas sosial şəbəkədə məlumat yayıb.

(Səh.9)

# İrəvanın yalnız imza atması qalıb

### Qarabağ torpaqları qarışına qədər Azərbaycanın nəzarətinə keçəcək




**"Hraparak" nəşri məlumat yayıb ki, Ermənistanın Baş naziri Nikol Paşinyan bəzi dairələrə Putinin üçtərəfli görüş təklifi ilə bağlı danışıb. Baş nazir bildirib ki, oktyabrın 31-də Soçidə keçiriləcək üçtərəfli görüşdə, hətta ölkədə hakimiyyət dəyişikliyi təhlükəsi olsa belə, sülh müqaviləsinin Rusiya variantını imzalamayacaq.**

Paşinyan onu da deyib ki, xalq hakimiyyətin tərəfindədir və o, Rusiyanın təhdidlərindən qorxmur. O bildirib ki, Azərbaycan Prezidenti Əliyev də Qərb variantının əleyhinə olduğundan saziş yaxın vaxtlarda imzalanmayacaq. Siyasi şərhçi Qalust Qriqoryan da iddia edib ki, regiondakı mühüm məsələlərin əsas kuratoru daha Rusiya deyil...

(səh.8)

## Köhnə binalar sökülüb əvəzində parklanma yerləri salınacaq

### İşbazlar yeni binalar inşa etdikləri vaxt az qala bir qarış yerlərindən belə güzəşt etmək istəməyiblər



**Bakıda köhnə binaları söküb əvəzində parklanma yerləri sal ına bilər.**

Bunu nəqliyyat sahəsinə dair məsələlərin müzakirəsi zamanı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İctimai şuranın sədr müavini Fərhad Əyyubov bildirib.

(səh.9)

## Azərbaycan Ermənistana 10 hərbçinin meyitini təhvil verib



**Azərbaycan Ermənistana 10 hərbçinin meyitini təhvil verib.**

Bu barədə Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Aram Torosyan bildirib.

Bundan əvvəl Baş prokurorun xüsusi tapşırıqlar üzrə böyük köməkçisi, kiçik ədliyyə müşaviri İlqar Səfərov bildirib ki, 27 sentyabr 2020-ci il tarixdən 2022-ci ilin sentyabr ayına qədər əsir götürülmüş 164 şəxs və 1713 meyit erməni tərəfinə təhvil verilib.



## Paşinyan sülh istəyirsə...

### Ermənistan Azərbaycanla birbaşa dialoq qura bilər

(səh.5)



## "O jurnalist qurban kəssin ki, 37-ci ildə doğulmayıb"

### Aqşin Yenisey: "Xalq yazıçılarına sözün qurbanı deyil, cəlladı olmaq irsi ötürülüb"

(səh.8)



# Overçukun Bakı səfəri

## Görüşün əsas mövzusu Zəngəzur dəhlizi və yekun sülh sazişinin imzalanmasını da əhatə edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünən Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib.**

Görüşdə Azərbaycan və Rusiya prezidentləri arasında əldə olunmuş razılaşmalar əsasında münasibətlərimizin dinamik inkişafından və ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi-ticari, nəqliyyat-tranzit, energetika sahələrində əməkdaşlığın mövcud vəziyyətindən məmnunluq ifadə edilib. Bütün istiqamətlər üzrə irəliləyişin olduğu və ticarət dövriyyəsinin artdığı vurğulanıb. Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı fikir mübadiləsi aparılıb.

Söhbət zamanı 10 noyabr Bəyanatının icrası ilə bağlı bölgədə nəqliyyat və iqtisadi əlaqələrin bərpası məqsədilə yaradılmış Azərbaycan, Rusiya və Ermənistan üçtərəfli işçi qrupunun fəaliyyəti üzrə məsələlər müzakirə olunub.

Görüşü dəyərləndirən Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli "Şərq"ə bildirib ki, bu səfərin sanksiyalar altında əzilən bir ölkənin iqtisadiyyatının dirçəldilməsinə hesablandığını düşünürəm: "Biz bu görüşün əsas müzakirə mövzularının energetika, iqtisadiyyat, ticarət və humanitar məsələlərdən ibarət olduğunu görürük. Görünür ki, Rusiya tərəfi Avrasiya İqtisadi Forumunun tədbiri vasitəsilə, Kremlin maliyyə əməliyyatlarının dairəsini genişləndirmək və ticarət mübadiləsini artırmaq istəyir.

Bunun üçün isə əlavə bazarlar və marşrutlar əldə etmək lazımdır. Bu mənada səfərin mövzu dairəsi, Zəngəzur dəhlizi və sülh müqaviləsinin imzalanmasını da əhatə edir.

Çünki Rusiyanın nəqliyyat marşrutlarına ciddi ehtiyacı var. Azərbaycana ehtiyac və alternativləri dəyərləndirmək istəyi isə buradan doğur. Məhz iqtisadiyyat yönümlü nazirlərlə görüşün keçirilməsi bununla əlaqədardır".

**Nihat Müzəffər**

# Zəngəzur dəhlizi düyünə düşüb

## XİN rəhbəri: Azərbaycan Ermənistanın qeyri-konstruktiv mövqeyi ilə üzləşib



**Nazir Ceyhun Bayramov Aİ səfirləri ilə görüşdə Azərbaycanın Şərq-Qərb Dəhlizində tutduğu yerin, o cümlədən bu istiqamətdə həyata keçirilən layihələrin əhəmiyyətini qeyd edib.**

Bu xüsusda, bölgədə kommunikasiyaların açılması, o cümlədən Zəngəzur dəhlizinin işə salınması istiqamətində Azərbaycan tərəfindən atılan addımların Ermənistanın qeyri-konstruktiv mövqeyi ilə üzləşdiyi diqqətə çatdırılıb.

Nazir Ceyhun Bayramov, həmçinin post-münaqişə mərhələsində regionda yaranmış yeni reallıqlar, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması, bölgədə yaşayan erməni əhalinin reinteqrasiyası istiqamətində Azərbaycan tərəfindən atılan addımlar, habelə mina təhlükəsi, Ermənistanın sülh prosesinə xələl gətirən təxribatları haqqında görüş iştirakçılarına ətraflı məlumat verib.



# Binəli Yıldırım xəstəxanadan evə buraxılıb

## "Ağır yol qəzası idi, Allah qorudu"

**Azərbaycanda yol qəzası keçirən AK Partiyanın sədr müavini Binəli Yıldırım İstanbulda yerləşdirildiyi xəstəxanadan evə buraxılıb.**

O, jurnalistlərin suallarını cavablandırır.

"Bir həftə əvvəl Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri çərçivəsində Zəngilanda mənim, millət vəkili Şamil Ayrımın və mühafizəçinin olduğu avtomobil qəzaya uğradı. Avtomobil bir neçə dəfə çevrildi, ağır bir qəza keçirdik. Allaha şükür edirəm, Allah qorudu".

O, başında iki dəfə cərrahiyə əməliyyatının aparıldığını qeyd edib, eyni zamanda, əlavə edib ki, körpücük sümüyü də əməliyyat edilib.

"İki qabırğam qırılıb. Bu da zamanla keçəcək", - Binəli Yıldırım vurğulayıb.

*Qeyd edək ki, oktyabrın 20-də Binəli Yıldırım, onun mühafizəçisi və millət vəkili Şamil Ayrımın olduğu avtomobil Zəngilan aeroportu yolunda qəzaya düşüb. Onların hər üçü müayinə üçün helikopterlə Bakıya gətirilib, növbəti gün isə Türkiyəyə yola salınıb.*

# Ermənistan Zəngəzur dəhlizi ilə bağlı əməli işə keçmir

## İrəvanın mövzu üzrə spekulyasiyası və imitasiyası 20 aylıq danışıqlar prosesinin mahiyyətini təhrif edir

**"Ermənistan ərazisində dəhlizlə bağlı əməli tədbirlər həyata keçirilmir". Bunu Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev bildirib. Baş nazirin müavini deyib ki, Azərbaycan Şərq-Qərb dəhlizinin mühüm tərkib hissəsinə çevriləcək Zəngəzur dəhlizinin yaradılmasını fəal şəkildə təşviq edir. Onun sözlərinə görə, Azərbaycan bu nəqliyyat dəhlizi boyu öz ərazisində böyük həcmdə işlər görür:**



"Yol və dəmir yolu infrastrukturu tikilir və bərpa olunur. Uzunluğu 123,9 km olan Horadiz-Ağbənd avtomobil yolunda işlərin 66 faizi, Horadiz-Ağbənd dəmir yolunda işlərin 38 faizi yerinə yetirilib ki, həmin yollar bu dəhlizin tərkib hissəsidir. Təəssüflər olsun ki, Ermənistan ərazisində heç nə baş vermir, əməli tədbirlər həyata keçirilmir, hətta heç bir texniki-iqtisadi əsaslandırılma və ya layihə də hazırlanmır".

**"Hələ də nəqliyyat dəhlizi, ekstraterritoriallıq terminləri ilə bağlı spekulyasiyalar mövcuddur"**

**Şahin Mustafayev Zəngəzur dəhlizinin Ermənistanın suverenliyini pozması məsələsinə aydınlıq gətirib. O deyib ki, uzun müddətdir və hələ də nəqliyyat dəhlizi, ekstraterritoriallıq terminləri ilə bağlı spekulyasiyalar mövcuddur:** "Baxmayaraq ki, onlar bir-biri ilə əlaqəli deyil və hətta sinonim deyillər. Nəqliyyat dəhlizi nəqliyyat daşımalarını təşviq etmək üçün xərclərin və keçid vaxtının azaldılması məqsədilə razılaşdırılmış nəqliyyat, gömrük və digər siyasət yürüdən bir neçə ölkənin ərazisindən keçən nəqliyyat marşrutudur. MDB-yə üzv dövlətlərin ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin əlaqələndirilmiş inkişafı haqqında Sazişin və digər bu kimi çoxtərəfli və ikitərəfli sənədlərin tərəfi olan Ermənistana nəqliyyat dəhlizi konsepsiyası yaxşı məlumdur. O ki qaldı suverenliyin pozulması məsələsinə, xatırladıram ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli bəyanatın 9-cu bəndinə əsasən Ermənistan ərazisində yol hərəkətinə nəzarət Rusiya FTX-nin sərhəd xidməti tərəfindən həyata keçirilir. Bu faktın suverenliyi hansı dərəcədə pozduğu sualını Ermənistan hökumətinə aid etmək lazımdır".

**"Azərbaycanla isə bu məsələdə heç bir razılaşma olmayıb"**

**Baş nazirin müavini Paşinyanın 3 buraxılış məntəqəsi üzrə təklifinə cavab verib:** "Bu məsələdə heç bir razılaşma olmayıb. Biz Ermənistan hökumətinin Azərbaycanla sərhəddə 3 nəzarət-buraxılış məntəqəsi yaratmaq qərarını üçtərəfli bəyanatın 9-cu bəndi üzrə öhdəliklərinin yerinə yetirilməsinin imitasiyası kimi qiymətləndiririk. Çünki birincisi, aparılmış monitorinqin nəticələrinə görə, bu nöqtələrdən çıxan yollar relyefə və iqlim şəraitinə görə ilin böyük hissəsində, kommunikasiyaların bərpa edilməsinin məqsədlərindən biri olan Naxçıvanla nəqliyyat əlaqəsi və beynəlxalq tranzit daşımaları üçün yararlı deyil. Bundan əlavə, bir qayda olaraq, keçid məntəqələri tərəflərin razılığı ilə, qarşılıqlılıq əsasında açılır. Azərbaycanla isə bu məsələdə heç bir razılaşma olmayıb. Odur ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında nəqliyyat əlaqəsinə dair məlum bəyanatın 9-cu bəndinin şərtlərinin yerinə yetirilməməsinin əsas səbəbi, Ermənistan tərəfindən aparılmış monitorinqin tövsiyə etdiyi avtomobil yolunun optimal marşrutunu təqdim etməməsidir".

**"Ermənistan tərəfinin mövzu üzrə spekulyasiyası danışıqlar prosesinin mahiyyətini təhrif edir"**

**Şahin Mustafayev vurğulayıb ki, həmçinin beynəlxalq tranzit daşımaları üçün keçid rejimlərinin və paritet əsasda daxili daşımalar üçün sadələşdirilmiş keçid rejimlərinin razılaşdırılması mühüm əhəmiyyət kəsb edir:** "Beləliklə, Ermənistan tərəfinin mövzu üzrə spekulyasiyası və imitasiyası 20 aylıq danışıqlar prosesinin mahiyyətini təhrif edir. Onun ləngiməsinə və son nəticədə Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsinə gətirib çıxarır".

**İsmayıl**



# Bakı Soçidə öz şərtlərini masaya yatıracaq

## İstər Vaşinqtonun, istərsə də Rusiyanın təqdim etdiyi sülh modelində Azərbaycanın xeyrinə məqamlar çoxdur, amma təhlükəli tezislər də mövcuddur

**"Rusiya Prezidenti Vladimir Putinin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistan Baş naziri Nikol Paşinyanın görüşü gözlənilir.**

İndiki mərhələ Azərbaycanla Ermənistan arasındakı sülh gündəliyinin ilkin detallı demo variantının Rusiya və ABŞ üçün nələri vəd etdiyi üzərində fikirlərə fokuslanmaq zərurətini meydana çıxarır.

Ən vacib isə ABŞ-la Rusiyanın Cənubi Qafqazda didişdiyi platformada Azərbaycanın hansı nöqtədə dayanmasıdır".

**Bunu "Şərq"ə açıqlamasında siyasi şərhçi Aqşin Kərimov deyib.**

O bildirib ki, istər Vaşinqtonun, istərsə də Rusiyanın təqdim etdiyi sülh modelində Azərbaycanın xeyrinə məqamlar çoxdur. Lakin hər iki supergücün Bakının maraqlarına uyğun olmayan təhlükəli tezisi də mövcuddur:

"Gedən proseslərin alt qatında gizlənənlər və dərinlikdəki mətləblərin bəzi aşkar təzahürlərini təhlil etsək, Bakının qarşı olduğu iki əsas xəttin önə çıxmasına köklənməyimiz mümkündür.

Biri episentri ABŞ olan təhlükədir. Ən çox Vaşinqton və onun Cənubi Qafqazla bağlı çağırışlarının yedəyinə qoşulan Fransa Qarabağdakı ermənilərə status istəyir. Həmin meyl Azərbaycanın suverenlik və təhlükəsizliyi üçün təhdid elementidir.

Digər tərəfdən ABŞ Azərbaycanın Ermənistanla sərhəddən qoşunlarını geri çəkməkdə maraqlıdır. Amma Bakı üçün prinsipial bir mövqe deyil.

Rusiya mərkəzli təhlükə isə Kremlin Qarabağda rus icması yaradıb onu şişirtməsi cəhdləridir. Moskvanın regionda ordu saxlamasından daha həyəcanlıdır.

Rusiyanın Ukraynadakı müharibədə düçar olduğu bir sıra uğursuzluqlar həmin meyli körükləyə bilər. Hərçənd Azərbaycanın masadakı və təhlükəsizlik mühitindəki qırmızı cizgiləri heç zaman aktuallığını itirməyəcək".

**Siyasi analitikin qənaətincə, Azərbaycanla Rusiya arasında son günlər yüksək səviyyəli media platformalarındakı qarşılıqlı ittihamlar da həmin motivlərlə əlaqəli ola bilər:** "Moskva Bakının ABŞ-ın təqdim etdiyi sülh modelinə üstünlük verəcəyini düşünür - status məsələsini çıxmaq şərtilə.

ABŞ-la Rusiyanı regionda kəllə-kəlləyə gətirən başqa proses Azərbaycan Ordusunun sərhəddə irəliləməsidir. Moskva bunu dəstəkləsə də ABŞ dəstəyin Kremldən gəldiyini həzm etməyi bacarmır. Delimitasiya prosesindən irəli gələn rıçaqları əlində cəmləşdirmək istəyir.

Azərbaycan lideri İlham Əliyevlə Paşinyanın Rusiyada gözlənilən görüşünün (red. Soçidə bir araya gələcəyi fikirləri var) təsvirinə gəlincə, Azərbaycan tərəfi qlobal oyunçuların hərisliklərinin artmasına baxmayaraq yenidən öz şərtlərini masanın üstünə qoyacaq. Ermənistan isə itirməkdə davam edəcək. ABŞ Azərbaycan Ordusunun irəliləməsinə qarşı çıxacaq əsaslı addımlardan çəkinəcək.

Çünki Vaşinqton Bakı ilə strateji tərəfdaşlıq səviyyəsindəki əlaqələrini İrəvanın ayaqlarına vermək meylinə getməz. Onsuz da Rusiya Ermənistanı "eşafota" çıxarıb onu sərt cəzalandırmaq istədiyindən o da Bakının maraqlarına üstünlük verəcək".

**Aygün Tahir**

---

(Əvvəli səh.1)

O ki, qaldı hansı varinatı seçməyə, bu Ermənistanın, erməni xalqının və Ermənistan rəhbərliyinin işidir. Bütün hallarda, hansı variant seçilsə, əgər bu sülhə gətirib çıxaracaqsa, biz ancaq bunu dəstəkləyirik",- deyə Putin bildirib.



# "Ermənistana təklif etdik ki, beş rayonu qaytar"

## Putin: "Razılaşmadılar, bu da bugunki vəziyyətə gətirib çıxardı"

Rusiya lideri bildirib ki, biz heç nəyə məcbur etmirik.

"Biz Ermənistana nəyisə diktə edə bilmərik və etməyə hazılaşmırıq. Əgər Ermənistan xalqı və rəhbərliyi hesab edirsə ki, sülh müqaviləsinin hansısa varinatını seçmək lazımdır, başa düşdüyüm qədər bu Vaşinqton planıdır. Hansı ki, Azərbaycanın Qarabağ üzərində suverenliyinin tanınmasını özündə əks etdirir. O zaman buyursunlar",- deyə Rusiya lideri əlavə edib.

*Vladimir Putinin sözlərinə görə, erməni xalqının bütün seçimləri dəstəklənəcək.*

"Əgər Ermənistan rəhbərliyi hesab edirsə ki, Qarabağ hansısa xüsusiyyətə malikdir və xüsusiyyət nəzərə alınmalıdır, o zaman belə də mümkündür. Sözsüz ki, Azərbaycanla razılışmaq lazımdır. Elə eləmək lazımdır ki, bu razılıq Azərbaycan üçün də məqbul olsun. Bu çox çətin, birbaşa desək ağır məsələdir", - deyə Putin əlavə edib.

**Rusiya lideri daha sonra bildirib:**

"Biz uzun illər ərzində Ermənistan tərəfi ilə dialoq apardıq və Qarabağ məsələsinin nizamlanması ilə bağlı təklif etdik ki, gəlin münasibətlərin normallaşması ilə bağlı hərəkət edək". (apa)

**Putin qeyd edib ki, Rusiya Ermənistan üçün beş rayonu Azərbaycana verib, iki rayonu - Kəlbəcərlə Laçını Qarabağla əlaqə üçün saxlamağı təklif edib:**

"Axı Ermənistan faktiki olaraq Azərbyacanın yeddi rayonuna nəzarət edirdi. Təklif etdik ki, iki rayonu saxlasın. Hansısa mərhələdə Azərbaycan tərəfi ilə razılaşarıq. Beş rayonu verin. Onlar lazım deyildi. Saxlamaq mənasızdır. Onlar boş qalan rayonlardır, insanlar ordan gedib, faktiki olaraq həmin ərazilərdən qovulub. Onlar niyə saxlanılmalıdır? Bunun heç bir mənası yoxdur. Amma Qarabağla əlaqəsi olan iki rayon olduqca böyükdür. Hesab edirik ki, qaçqınların ora qaytarılması ədalətli olardı. Bu, ümumilikdə regionda vəziyyətin normallaşması üçün yaxşı addım olardı. Lakin Ermənistan rəhbərliyi öz yolu ilə getdi. Məlum olduğu kimi, bu da bugunki vəziyyətə gətirib çıxardı", - deyə Putin bildirb.

---



# Aİ müşahidəçiləri Ermənistan-Azərbaycan şərti sərhədi boyu ilk patrul xidmətinə gediblər

**Avropa İttifaqının (Aİ) müşahidəçiləri İrəvana gəldikdən sonra Ermənistan-Azərbaycan şərti sərhədi boyunca ilk patrul xidmətinə gediblər.**

"Report" Ermənistan mətbuatına istinadən xəbər verir ki, bu barədə Avropa Müdafiə Agentliyi tviterdə məlumat yayıb.

Bildirilib ki, missiyanın işi iki ay üçün nəzərdə tutulub: "Növbəti iki ay ərzində Aİ-nin Müşahidə Missiyası etimad mexanizmlərini gücləndirmək və sərhəd komissiyalarının işinə töhfə vermək üçün Ermənistan tərəfdən Ermənistan-Azərbaycan sərhədində vəziyyətin monitorinqini aparacaq".

*Xatırladaq ki, Aİ missiyasının Ermənistan-Azərbaycan sərhədinə göndərilməsi fikri Avstriya, Litva və Rumıniya tərəfindən irəli sürülüb. Oktyabrın 17-də Aİ xarici işlər nazirləri Lüksemburqda keçirilən görüşdə 40 müşahidəçinin göndərilməsini rəsmən təsdiqləyiblər.*

---

# Siyasi sistemimiz dəyişir, inkişaf edir

## Hikmət Babaoğlu: "Siyasi partiyalar haqqında qanunun müzakirəsi demokratiya tariximizdə yeni bir hadisədir"

**"Siyasi Partiyalar" haqqında qanun layihəsinin Milli Məclisdə müzakirə edilməsi demokratiya tariximizdə yeni bir hadisədir". Bunu millət vəkili Hikmət Babaoğlu "Şərq"ə açıqlamasında deyib. Deputat bildirib ki, ilk dəfədir ki, siyasi partiyaların əksəriyyətinin iştirakı ilə belə mühüm kütləvi hadisə baş tutub:**

"İndiyədək heç vaxt Azərbaycanın siyasi palitrasının demək olar ki, bütün rənglərinin qatıldığı formatda kütləvi müzakirə olmayıb. Hazırkı siyasi sistemimiz ötən əsrin 90-cı illərində əsası qoyulan və formalaşan sistemdir. "Siyasi partiyalar" haqqında mövcud qanunumuz da 1992-ci ildə qəbul edilib. İndiki mərhələdə kordinal şəkildə dəyişən şərtlər var. Bu, istər siyasi sistemimizi təyin edən, istərsə də demokratiyamızın inkişafının hazırkı vəziyyəti ilə bağlı olan faktorlarla əlaqədərdir. Məsələn, müstəqilliyimizin ilk illərində siyasi mübarizə siyasi rəqabət və siyasi münasibətlər sistemimiz ərazi bütövlüyümüz və keçmiş Qarabağ problemi kontekstində formalaşırdı. Bu faktorlar daima sosial-siyasi münasibətlərimizi təzyiq altında saxlayır, demokratik inkişafımızın obyektiv əsaslarda formalaşmasına təsir edirdi. Hazırda isə həm ölkəmizdə həyata keçirilən dərin siyasi islahatlar, həm də Vətən müharibəsindən sonra əldə etdiyimiz tarixi qələbəmiz kontekstində siyasi münasibətlər sitemimizin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması zərurəti yaranıb".



**Parlament üzvü vurğulayıb ki, qanun layihəsi yeni hüquqi əsaslarda, daha demokratik qanunlarla tənzimlənməlidir:** "Müzakirələr zamanı bəlli oldu ki, qanun layihəsinə 47 siyasi partiyadan 250-dən çox təklif daxil olub. Eyni zamanda 11 parlament partiyasının təşəbbüsü və Milli Məclis sədrinin dəstəyi ilə yeni qanun layihəsi ərsəyə gəlib. Bu isə o deməkdir ki, qanun layihəsinin həmmüəllifləri 47 siyasi partiya, yaxud onların təmsilçiləridir. Ona görə də "Siyasi partiyalar" haqqında qanun layihəsi növbəti müzakirələrdə daha da cilalanmaqla, təkmilləşməklə siyasi sistemimizin inkişafına səbəb olacaq qanuna çevriləcək. Bu isə bütün siyasi sistemimizin uğuru kimi qiymətləndirilməlidir".

**İsmayıl**

# Ortaq iradə TDT-nin gücünü artıracaq

## Türk dünyasının aralarındakı məsafələr əməkdaşlıqla qısalır



**Dünən Bakıda Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi dövlətlərin Audiovizual Media üzrə Tənzimləyici Orqanlarının 1-ci Toplantısı keçirilib. TDT-yə üzv dövlətlər - Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, həmçinin müşahidəçi üzv Macarıstan və Türkmənistanın audiovizual media sahəsi üzrə tənzimləyici qurumlarının bir araya gəldiyi toplantının əsas məqsədi türkdilli dövlətlərin audiovizual media və onun tənzimlənməsi sahəsində əməkdaşlığının möhkəmləndirilməsi olub.**

Həmçinin, TDT-yə üzv və müşahidəçi dövlətlərin Audiovizual Media üzrə Tənzimləyici Orqanlarının Forumunun yaradılması ilə bağlı Türkiyə tərəfinin təqdim etdiyi Konsepsiyanın müzakirəsi və son nəticədə Forumun yaradılması ilə bağlı Niyyət Bəyannaməsinin imzalanması olub. Toplantının açılış hissəsində Prezident Administrasiyasının Rəqəmsal media ilə iş sektorunun müdiri Elmir Vəlizadə, TDT-nın Baş katibinin müavini Ömər Kocaman, Medianın İnkişaf Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, Audiovizual Şurasının sədri İsmət Səttarov çıxış ediblər.

**“Azərbaycanla Türkiyə arasında media sahəsində sıx əməkdaşlıq mövcuddur”**

**Prezident Administrasiyasının Rəqəmsal media ilə iş sektorunun müdiri Elmir Vəlizadə bildirib ki, son zamanlar TDT çərçivəsində üzv ölkələr arasında həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığın inkişaf etməsi həmin tendensiyanın televiziya və radio yayımının tənzimlənməsi sahəsində əməkdaşlığa da təkan verir.** Onun sözlərinə görə, ölkələrimiz arasında media sahəsində müxtəlif təcrübələrimiz mövcuddur: ”Audiovizual sahədə təşəbbüslər mühüm əhəmiyyət kəsb edir. Audiovizual proqramların hazırlanması günümüzün tələbidir. Ölkəmizdə bu sahədə fəaliyyətin təşkilində müsbət göstəricilər mövcuddur. Azərbaycan regionda rəqəmli TV-yə keçmiş ilk ölkələrdən biridir. Azərbaycanla Türkiyə arasında da media sahəsində sıx əməkdaşlıq mövcuddur. Bu, televiziya və radio yayımının tənzimlənməsi sahəsində əməkdaşlığa da təkan verir”.

**“Orta Asiya ölkələri ilə əlaqələrin inkişaf etdirilməsi üçün fürsət olacaq”**

**Audiovizual Şurasının sədri İsmət Səttarov Azərbaycanın audiovizual media sahəsinin hazırkı vəziyyəti və bir sıra yeniliklər haqqında ətraflı məlumat verib.** TDT çərçivəsində mövcud olan əməkdaşlıq münasibətlərinin gələcək perspektivlərindən, audiovizual media üzrə birgə fəaliyyət haqqında fikirlər səsləndirib: ”Türk Dövlətləri Təşkilatının çətiri altında bütün sahələrdə olduğu kimi, media sahəsində də dərin və geniş inteqrasiya prosesləri baş verir. Ölkələrimizin müvafiq strukturları, media qurumları və təşkilatları arasında onlarla memorandumlar imzalanıb. Çoxsaylı müxtəlif konfrans və tədbirlər, qarşılıqlı təcrübə mübadiləsi səfərləri təşkil olunub və olunmaqdadır. Türk Dövlətlərinin Audiovizual Media Tənzimləyicilərinin Forumunun yaradılması ideyası yeni deyil. İlk dəfə bu ideya 2017-ci ildə Van şəhərində keçirilən görüşdə qardaş Türkiyənin tənzimləyici qurumu olan RTÜK tərəfindən irəli sürülüb. Lakin regionda baş verən proseslər, habelə 2020-ci ildən dünyanı cənginə alan pandemiya bu məsələnin dərinləşməsi və inkişafı prosesini ləngidib. Azərbaycan və Türkiyə arasında media sahəsində Əməkdaşlıq Memorandumunun imzalanması və iki ölkə arasında Birgə Media Platformasının yaradılmasından sonra 2021-ci ildə Azərbaycan Respublikası Audiovizual Şurası bu ideyanın inkişaf etdirilərək yenidən gündəmə gətirilməsinə nail olub. Bunun məntiqi nəticəsi kimi, Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Media və informasiya üzrə nazirlərinin 4-cü Toplantısının Razılaşdırılmış Protokoluna uyğun olaraq bu toplantının 2022-ci ilin sentyabr-oktyabr aylarında Azərbaycanda keçirilməsi qərarlaşdırılıb. Hesab edirəm ki, bu gün bu məsələnin yenidən gündəmə gəlməsinin, hərtərəfli müzakirə olunmasının və praktikada reallaşdırılması üçün yeni impulsların verilməsinin vaxtı çatıb. Əminəm ki, Türk Dövlətləri Təşkilatının Katibliyinin səyləri ilə türk dövlətlərinin audiovizual media tənzimləyicilərinin sıx koordinasiyası ölkələrimizdə cərəyan edən inteqrasiya proseslərinin gedişi zamanı qarşıya çıxan çoxsaylı məsələlərin həllinə və cəmiyyətlərimiz arasında ümumi media platformasının inkişafına yardım edəcək”. O, eyni zamanda qeyd edib ki, TDT-nin Audiovizual Tənzimləyici Orqanlarının Forumuna sədrliyin ildə bir dəfə üzv ölkələr arasında dəyişməsi təklif edilir: ”Sədrliyin ildə bir dəfə dəyişməsi çox yaxşı fürsətdir. Çünki biz Türkiyədə tez-tez oluruq, amma Orta Asiya ölkələrində də əlaqələrin daha da inkişaf etdirilməsi üçün bu fürsət olacaq”.

**“Qara propaqanda fəaliyyətlərinə qarşı mübarizəni də gücləndirməliyik”**

**TDT-nın Baş katibinin müavini Ömər Kocaman Audiovizual Media tənzimləyicilərinin birgə şəbəkələşməsinin zamanın zərurəti olduğunu qeyd edib.** TDT Katibliyinin bu istiqamətdə fəaliyyətindən danışan qurum rəsmisi audiovizual medianın tənzimlənməsi sahəsində ölkələrin təcrübə və bilik mübadiləsinin bütün tərəflərə faydalı olacağından əminliyini ifadə edib: ”Fərqli sahələrdə əməkdaşlıqların bizi gələcəkdə bütün sahələrdə yaxınlaşdıracağını bilirik. Bu gün türk dövlətlərinin ortaq iradəsi ilə həyata keçirilən bu addımlar təşkilatın gücünü artıracaq. Audiovizual sahədə əməkdaşlığımız digər sahələrdəki münasibətlərimizi də yaxınlaşdıracaq. TDT olaraq gələcəkdə dezinformasiya ilə mübarizədə audiovizual sahədə əməkdaşlığı daha da inkişaf etdirməliyik. Bundan 15 il əvvəl həyatımızda olmayan bütün reallıqları kökündən dəyişdirən media ordusu ilə qarşı-qarşıyayıq. Qara propaqanda fəaliyyətlərinə qarşı mübarizəni də gücləndirməliyik. Dezinformasiyaların, bizə qarşı qarayaxma kampaniyasının artdığı bu dövrdə audiovizual sahədə əməkdaşlığı artırmaq TDT-yə üzv dövlətlər üçün kritik əhəmiyyətə malikdir. Audiovizual medianın düzənlənməsi keçmişdə olduğundan daha çox önəmə sahibdir. Türk dünyası içindəki məsafələr artıq mövcud əməkdaşlıqlarla qısalıb. Məsafələr qısalarkən azadlıq və təhlükəsizlik arasında əlaqədə balansı qorumalıyıq”.



## Ömər Kocaman: “Gələcəkdə dezinformasiya ilə mübarizədə audiovizual sahədə əməkdaşlığı daha da inkişaf etdirməliyik”

**“Azərbaycan mediası yeni islahatlar mərhələsinə qədəm qoyub”**

**Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov deyib ki, ”Azərbaycan mediası müasir çağırışlara uyğunlaşmaq və daha çevik reaksiya vermək məqsədilə bir müddətdir ki, yeni islahatlar mərhələsinə qədəm qoyub.** Onun sözlərinə görə, hazırda müasir dünyanın yeni trendinə çevrilmiş rəqəmsal media məkanı gün-gündən genişlənməkdə və ölkələrin milli informasiya mühitinə öz təsirini göstərməkdədir. Qloballaşan dünyada yüksək sürətlə baş verən informasiya mübadiləsi prosesi, demək olar ki, bütün ölkələri əhatə etməkdədir: ”Agentlik fəaliyyətinin əsas hədəflərindən biri kimi media subyektlərinin iqtisadi müstəqilliyinin təmin edilməsi məsələsini daim diqqətdə saxlayır. Bu məqsədlə müvafiq təhlil və araşdırmalar aparır. Həmçinin beynəlxalq informasiya mübadiləsində yeni imkanlar açan müasir informasiya-kommunikasiya texnologiyalarının, innovasiyaların tətbiqinə, vətəndaşın, cəmiyyətin və dövlətin informasiya təhlükəsizliyinin təmin olunmasına istiqamətlənmiş layihələrin həyata keçirilməsi üçün tədbirlər görür”.

**“Azərbaycan və Türkiyənin birgə media platforması mövcuddur”**

**Ə.İsmayılov vurğulayıb ki, bu il iyul ayının 22-də Azərbaycanın müstəqil dövlətçilik tarixində ilk dəfə Azərbaycan media nümayəndələri öz peşə bayramlarını ölkəmizin mədəniyyət paytaxtı, milli mətbuatımızın inkişafında xüsusi yeri olan, Qarabağın tacı Şuşa şəhərində Beynəlxalq Media Forum keçirməklə qeyd ediblər:** ”Şuşa şəhərində keçirdiyimiz Beynəlxalq Media Forumda dünyanın 20-yə yaxın ölkəsindən gəlmiş xarici media nümayəndələri və ekspertlər, beynəlxalq media təşkilatlarının təmsilçiləri ilə müasir media mühitinə dair bütün aktual mövzular ətrafında fikir mübadiləsi apardıq. Cənab Prezident İlham Əliyev tərəfindən Azərbaycan jurnalistlərinə ünvanlanmış müraciətdə Vətən müharibəsi zamanı Azərbaycan mediasının informasiya cəbhəsində mübarizə apararaq, kütləvi dezinformasiya hücumlarının qarşısının alınmasında, cəmiyyətimizin operativ və düzgün məlumatlandırılmasında böyük rolu olduğu vurğulanıb, həmçinin ölkə mediasının inkişafı ilə bağlı olduqca əhəmiyyətli istiqamətlər və prinsiplər müəyyənləşdirilib. Azərbaycan mediasının beynəlxalq informasiya məkanına inteqrasiyası dünyamızın reallıqları fonunda daha böyük əhəmiyyət kəsb edir. Bu gün Azərbaycan və Türkiyənin birgə media platforması mövcuddur”.

**MEDİA-nın icraçı direktoru bildirib ki, Birgə Media Platformasının məqsədi Azərbaycan-Türkiyə ikitərəfli əlaqələrini və əməkdaşlığını media və kommunikasiya sahəsində gücləndirməklə strateji media ortaqlığının yaradılmasıdır:** ”Bu istiqamətdə əsas fəaliyyətimiz ölkələrimiz haqqında həqiqətləri beynəlxalq mediada dünya ictimaiyyətinə düzgün çatdırmaqdır. Bu ilin iyun ayında Prezident İlham Əliyevin Özbəkistana səfəri çərçivəsində Medianın İnkişafı Agentliyi ilə Özbəkistan Respublikası Prezidentinin Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiyalar Agentliyi arasında Anlaşma Memorandumu imzalanıb. Həmçinin bu ilin avqustunda Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana rəsmi səfəri çərçivəsində ”Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ilə Qazaxıstan Respublikası İnformasiya və İctimai İnkişaf Nazirliyi arasında Anlaşma Memorandumu” imzalanıb. Türk Dövlətləri Təşkilatının üzvü olan bu qardaş respublikalarla imzaladığımız anlaşma memorandumları çərçivəsində media məkanında milli maraqların birgə təşviqi və qorunmasına yönəlmiş ikitərəfli əməkdaşlıq mexanizmlərinin formalaşdırılması, təcrübə mübadiləsinin genişləndirilməsi, o cümlədən media sahəsində qarşılıqlı əlaqələrin yaradılması nəzərdə tutulur. Bununla yanaşı, fəaliyyət dövrü ərzində MEDİA müxtəlif istiqamətlərdə icra edilən çoxsaylı layihələr çərçivəsində ADA Universiteti, ”Al Jazeera”, ”Haber Global”, Türk Əməkdaşlıq Koordinasiya Agentliyi, ”Anadolu Ajansı” kimi nüfuzlu yerli və beynəlxalq qurumlarla etibarlı əməkdaşlıq əlaqələri qura bilib. Bizim öz ölkələrimiz haqqında həqiqətləri beynəlxalq auditoriyaya çatdırmaq üçün bütün türk dünyasının jurnalistləri arasında həmrəyliyə ehtiyacımız var. Media subyektlərimiz öz peşəkar missiyasını bütün müstəvilərdə vahid ideologiya ilə yerinə yetirdiyi təqdirdə səsimiz daha güclü olacaq və daha aydın eşidiləcəkdir. Türk dünyasının birlik, həmrəylik və əməkdaşlıq ideyasını rəhbər tutaraq möhkəmlənən əlaqələrinin media sahəsində də uğurla davam edəcəyinə inanırıq. Beynəlxalq aləmi türk dünyası haqqında obyektiv informasiya ilə təmin etmək üçün biz peşəkarlığımızı və sayıqlığımızı artırmalı, birliyimizi möhkəmləndirməliyik”.

**İsmayıl**

# İranın ermənipərəst siyasəti daha da şiddətlənəcək

## Rəsmi Tehranın məhz indi Ermənistana dəstək verməsinin maraqlı səbəbləri var



**"İranın Azərbaycanla Ermənistan arasındakı münaqişədə rəsmi İrəvanın mövqeyindən çıxış etməsinin tarixi keçmişi var".**

**Bunu "Şərq"ə açıqlamasında siyasi şərhçi Asif Nərimanlı deyib. Onun sözlərinə görə, Birinci Qarabağ savaşında da rəsmi Tehran Azərbaycana humanitar, Ermənistana isə silah yardımı edirdi:**

"30 il ərzində dövlətimizin apardığı siyasət məhz Qarabağın azad edilməsi istiqamətində olub. Azərbaycan qələbə qazandıqdan sonra təbii ki, İranın kabusu başladı. Çünki ölkəmiz ərazi baxımından İranla müqayisədə kiçik olsa belə, müharibədən sonra faktiki regional gücə çevrilib.

O cümlədən cənub qonşumuzla sərhədin bərpa edilməsi, onun savaşdan sonra Cənubi Qafqaza girişində Azərbaycandan asılılığı artıb. Rəsmi Bakının güclənməsi rəsmi Tehranın bölgədəki strateji maraqlarına uyğun gəlmir. Həmçinin hesab edirdilər ki, Güney Azərbaycan məsələsi aktuallaşacaq. Faktiki olaraq, 44 günlük savaşdan 2 il ötməsi fonunda bunlara şahidlik edirik. Güneydəki soydaşlarımızın daha güclü Azərbaycana inteqrasiyası gündəmdədir. İranın da düşmən ölkəyə dəstəyinin əsas səbəbi budur".

**A.Nərimanlı vurğulayıb ki, Zəngəzur dəhlizi məsələsini motiv olaraq götürürlər:** "Çünki Zəngəzur koridoru onların düşüncəsinə görə Azərbaycanın dediyi şərtlər çərçivəsində açılarsa, İranın Cənubi Qafqaza çıxışı tamamilə ölkəmiz və Türkiyənin təsiri altına düşür. Bəzən ölkələr arasında uzlaşılmayan məsələlər yaşansa da, nəticə etibarilə sonda ölkələr masada oturub, problemləri aradan qaldıra bilirlər. İndiyədək İran tərəfi ermənipərəst siyasətini müəyyən qədər pərdələməyə çalışırdı. Amma müharibədən sonra, xüsusən son dövrlərdəki addımlarını artıq gizlətmirlər. Azərbaycana qarşı düşmənçiliyi açıq-aydın elan edirlər. Biz bunu keçirilən təlimlərdə də görürük. SEPAH-ın hərbi rəhbərinin verdiyi üstüörtülü açıqlamalarında da, mətbuatda da görürük".

Rəsmi Tehranın məhz indi Ermənistana dəstək verməsinin başqa səbəbləri olduğunu söyləyən A.Nərimanlı qeyd edib ki, onlardan biri də Rusiya faktorunun arxa plana keçməsidir: "Rəsmi Moskvanın Ukraynada başının qarışması Ermənistanı bazara çevirib. Ora daxilolma imkanları artıb. İran çalışır ki, Rusiyanın boş qoyduğu yeri tutsun. Son proseslərin fonunda cənub qonşumuzun rəsmi İrəvanla birgə hərbi təlimlər keçirmə istəyi təəccüblü deyil. İran bu məsələlərlə Ermənistanın təhlükəsizliyini öz üzərinə götürməyə səy göstərir. Fikrimcə, sözügedən proseslər qarşıdakı dövrdə daha da şiddətlənəcək və sərt forma alacaq. Azərbaycana qarşı düşmənliyi, açıq tendensiyanı İranda görə biləcəyik".

*Qeyd edək ki, İran Ermənistana birgə hərbi təlimlər keçirməyi təklif edib.*

**Sücayət Mehti**

**Toğrul İsmayıl:**
"Bunun üçün hansısa ölkənin vasitəçiliyinə ehtiyac yoxdur"



# Paşinyan sülh istəyirsə...

## Ermənistan Azərbaycanla birbaşa dialoq qura bilər

**Ermənistanın Baş naziri Nikol Paşinyan bəyan edib ki, ilin sonuna qədər Azərbaycanla sülh müqaviləsi imzalamaq istəyirlər.**

O, parlamentdə çıxışı zamanı bildirib ki, hökumət bunun üçün lazım olan hər şeyi edir: "Biz çalışacağıq ki, bunu sərhədlərin delimitasiyası tamamlanana qədər başa çatdıraq".

Sual yaranır ki, Paşinyanın bu açıqlamasından sonra Rusiyada keçiriləcək üçtərəfli görüşdə hansısa nailiyyətlərin əldə olunacağını düşünə bilərikmi? Yoxsa bu açıqlamalar sadəcə "gözdən pərdə asaraq" sülhü ertələmək üçündür?

**Paşinyanın bəyanatını "Şərq"ə dəyərləndirən Türkiyədə yaşayan tanınmış azərbaycanlı alim, Ankara Universitetinin professoru, siyasi şərhçi Toğrul İsmayıl vurğulayıb ki, Ermənistan tərəfi belə çıxışlarla özünü təmizə çıxarmaq istəyir:** "Biz ermənilərin apardığı siyasətə baxdığımızda bunu daha yaxşı görürük. Bununla onlar "Biz sülh üçün əlimizdən gələni edirik" mesajı verməyə çalışırlar. Əgər onlar bu fikirlərində səmimidirlərsə, o zaman "Mən Azərbaycanın ərazi bütövlüyünü tanıyıram və anlaşmaya hazıram" deyib, bizimlə birbaşa dialoq qura bilərlər.

Bunun üçün hansısa ölkənin vasitəçiliyinə ehtiyac yoxdur. Yəni vasitəçilər işə qoşulduğu zaman proseslər uzanır. Çünki bunun arxasında bəzi ölkələrin siyasi mənfəətləri dayanır.

Düzdür, Ermənistanın sülh müqaviləsini imzalamaqdan başqa çarəsi yoxdur. Lakin maksimum dərəcədə bunu uzatmağa və özlərinə fayda əldə etməyə çalışacaqlar. Amma onlar varlığını sürdürmək istəyirlərsə, sülh müqaviləsini tezliklə imzalamalıdırlar. Ona görə ki, buna Ermənistanın daha çox ehtiyacı var, nəinki Azərbaycanın".

**Nihat Müzəffər**

# "Report"un 8 yaşı tamam oldu

REPORT İNFORMASİYA AGENTLİYİ

## Pərvin Abbasov: "Bundan sonrakı dövrdə də cəmiyyətin daha dolğun informasiya ilə təminatına çalışacağıq"

**Ölkə mediasında özünəməxsus yeri olan, mötəbər xəbər mənbələrindən biri sayılan "Report" İnformasiya Agentliyinin (İA) fəaliyyətə başlamasından 8 il ötdü. Azərbaycanda azad mətbuatın fəaliyyəti üçün yaradılan münbit şərait, ictimaiyyətin onlayn xəbər resurslarına əlçatanlığının asanlaşmasını nəzərə alaraq 2014-cü ildə "Report" İnformasiya Agentliyi onlayn media məkanında fəaliyyətə başladı.**

Azərbaycan, rus və ingilis dillərində fəaliyyət göstərən "Report" İA ötən səkkiz il ərzində siyasət, iqtisadiyyat, cəmiyyət, idman, mədəniyyət və digər sahələr üzrə ölkədə və dünyada baş verən ən vacib hadisələri operativ şəkildə işıqlandıraraq, özünə geniş oxucu auditoriyası topladı. "Report" İA gündəlik bülletenlər vasitəsilə də məlumatların abunəçilərə təqdim edilməsini həyata keçirir. Yarandığı gündən agentliyin qarşıya qoyduğu məqsəd ölkədə və dünyada baş verən ən vacib hadisələri öz oxucularına operativ şəkildə çatdırmaq, ictimai-siyasi, iqtisadi proseslərlə bağlı analitik materiallar təqdim etməkdir. Həmçinin, gündəmin vacib hadisələri ilə bağlı eksklüziv müsahibə və açıqlamalar yaymaqdır. Azərbaycanda baş tutan irimiqyaslı tədbirləri foto, video reportajlar vasitəsilə işıqlandırmaqdır. İlk gündən eksklüziv xəbərlərə üstünlük



verən agentlik bütün yerli saytlar üçün etibarlı istinad mənbəyinə çevrilib. Hazırda "Report"un özəl xəbərlərini gün ərzində çoxlu sayda yerli və xarici mötəbər kütləvi informasiya vasitələri istinadla dərc edir. Hazırda "Report"un ölkə ərazisində müxbir postları mövcuddur. Bölgələrin sosial-iqtisadi inkişafı ilə bağlı materialların hazırlanmasına xüsusi diqqət yetirilir. Agentliyin Rusiya, Türkiyə, Ukrayna, ABŞ və Fransada fəaliyyət göstərən xüsusi büroları isə həmin ölkələrdə baş verən mühüm hadisələri diqqətlə izləyir, müxtəlif səpkili yazılar hazırlayır. Agentlik Azərbaycanda ixtisaslaşmış jurnalistlərin hazırlığına da töhfə verməyə davam edir. Media sahəsində peşəkar kadrlar yetişdirmək, dünya mətbuatının yararlandığı müasir trendləri gənc jurnalistlərə aşılamaq məqsədilə agentlikdə Report Media Məktəbi fəaliyyət göstərir. Hazırda "Report" İnformasiya Agentliyi "Global Media Group" şirkətinin tərkibinə daxildir.

**"Report" İnformasiya Agentliyinin baş redaktorunun müavini Pərvin Abbasov media strukturu yaranan gündən orada çalışdığını deyib. Redaktor vurğulayıb ki, təmsil olunduğu agentlik gün ərzində yüzlərlə xəbər verir:** "İşimiz yüngül deyil, çünki xəbərlər həm dəqiq, həm də operativ şəkildə ictimaiyyətə çatdırılmalıdır. Əməkdaşlarımız da çox əziyyət çəkirlər, bir çox hallarda fədakarlıq edirlər. Xəbərlərin tapılması, hazırlanması böyük zəhmət hesabına başa gəlir. Deməli olar ki, ölkənin bütün media qurumları Agentliyimizin xəbərlərindən istinadla, yaxud istinadsız istifadə edirlər. Qəzetlər, xəbər saytları, televiziya və radiolar, bəzən agentliklər belə bizim informasiyalardan yararlanırlar. "Report" Agentliyi üç dildə fəaliyyət göstərir. Rus və ingilis dilinə tərcümə olunmuş xəbərlərimizə xarici media qurumları da istinad edirlər. "Report"un uğurlarını gördükcə, daim fərəhlənirik və irəli baxırıq. Agentlikdə çox yaxşı iş mühiti, yaxşı kollektivimiz var. Hamı bir-biri ilə ailə kimidir. Agentlik həftənin 7 günü, 24 saat, üç növbədə fəaliyyət göstərir. Azərbaycanın informasiya savaşına öz töhfəmizi veririk. Bundan sonrakı dövrdə də cəmiyyətin daha dolğun informasiya ilə təminatına çalışacağıq".

**"Şərq" qəzeti olaraq biz də "Report" ailəsini, dəyərli həmkarlarımızı 8 yaşları münasibəti ilə təbrik edir, fəaliyyətlərində uğurlar arzulayırıq.**

**İsmayıl Qocayev**

# Bərdə, Gəncə dünyanın gözü qarşısında bombalandı

## Müharibə cinayətlərinin qeydə alınması üçün komissiya yaradılmalıdır



**2020-ci il oktyabrın 27-də Bərdə rayonunun Qarayusifli kəndi Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulub.**

Beynəlxalq hüquqla qadağan olunmuş kaset bombalardan istifadə olunmaqla zərbələr endirilməsi nəticəsində aralarında uşaq və qadınlar da olmaqla, 5 dinc sakin həlak olub, 13 mülki şəxs yaralanıb.

Düşmənin raket atəşi nəticəsində bir neçə yaşayış evi tamamilə dağılıb, sakinlərə külli miqdarda ziyan dəyib.

Qeyd edək ki, Bərdə şəhəri və rayonun kəndləri 5, 8, 27, 28 oktyabr və 7 noyabr tarixlərində raket və ağır artilleriya hücumlarına məruz qalıb.

Bərdə rayonunda törədilən terrorlar nəticəsində 28 nəfər həlak olub, 108 nəfər yaralanıb. Evlərə, mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

**Azərbaycanın son 2 ildə Ermənistanın ölkəmizə qarşı törətdiyi müharibə cinayətlərilə bağlı bir sıra tədbirlər həyata keçirdiyini deyən Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, millət vəkili Zahid Oruc "Şərq"ə bildirib ki, bunların arasında Bərdəyə hücumun beynəlxalq aləmə daşınması da var idi:** "Əgər bizim səylərimiz olmasa, xarici tribunaların bu məsələyə öz təşəbbüsü ilə qiymət verməsi əsla gözlənilən deyil. Çünki beynəlxalq təşkilatlar konkret mərkəzlərdən siyasi tapşırıq almadan belə məsələləri gündəmə gətirmir. Biz görürük ki, Ukraynadakı vəziyyətin qiymətləndirilməsi üçün ən azı 3-4 qrup yaradılıb. Bəs nə üçün bizim xalqımız üçün belə addımlar atılmayıb? Məgər Gəncəyə və Bərdəyə edilmiş terror cəhdləri nəticəsində yaralanan və dünyasını dəyişən insanların hüquqları yox idimi? Bu hücumlar savaşın miqyasını böyütməyə və əhaliyə zərbələr vuraraq, daxili parçalanma yaratmağa xidmət edirdi. Yəni insanlar desin ki, müharibəni dayandırın, bizə hücum olunur. Onlar bu taktikadan həm 1-ci, həm də 2-ci Qarabağ savaşında istifadə ediblər. Gündüz vaxtı insanların toplaşdığı və heç bir hərbi obyektin olmadığı yola atəş açılması mülki əhalinin məhvini istəməkdən başqa bir şey ola bilməz".

Parlamentari qeyd edib ki, azad olunmuş ərazilərdəki mənzərə bizim haqlı olduğumuzun ən böyük sübutudur: "Ermənilər Kəlbəcərdən, Zəngilana qədər xalqımızın 1000 ilə yaratdıqlarını darmadağın edib. Biz heç bir beynəlxalq təşkilatda buna qiymət verildiyini görməmişik. Söhbət təkcə 65 məscidin və mədəniyyət abidələrinin dağıdılmasından getmir.

Söhbət 1 milyondan çox insanın ata-baba yurdlarının və mənəvi irslərinin məhv edilməsindən gedir. Bu insanlar Ermənistanı məhkəməyə verərək təzminat tələb edə bilərlər.

Amma həmin təşkilatlar buna da getməyəcək. Ona görə ki, Ermənistan kimi kasıb bir dövlətin təzminat ödəməsi onun çökməsinə səbəb ola bilər. Bu isə Ermənistanı bölgədəki xarici siyasət aləti kimi istifadə edən qüvvələrin strategiyasına uyğun deyil".

STM sədrinin sözlərinə görə, hər iki müharibənin cinayətlərinin qeydə alınması üçün vahid komissiya yaradılmalıdır: "Bu hücum təkcə Bərdəyə yox, ümumi Azərbaycan xalqına qarşı olmuş cinayətdir. Bizim üçün bundan sonrakı dövrdə ən əsas strategiya sülh müqaviləsinin imzalanması və cinayətlərdə əli olan hər bir ermənin cəzalandırılması olmalıdır.

Bu istiqamətdə müəyyən işlər görəcəyimiz təqdirdə, mütləq siyasi nəticələr qazanacağıq. Çünki savaşı səngərdə ordu, siyasi platformalarda isə informasiya generalları və siyasətçilər aparır. Müharibənin hərb meydanında bitsə də, siyasi sferada davam etdiyini unutmamalıyıq".

**Nihat Müzəffər**



# ABŞ valyutası mövqeyini qoruyur

## Hələlik avronun kəskin möhkəmlənməsi gözlənilmir

**Avropa Mərkəzi Bankı kreditlər üzrə baza uçot dərəcəsini 2 faiz səviyyəsinə qaldırıb. Bank depozitlər üzrə uçot dərəcəsini 1,5 faiz, qısamüddətli kreditlər üzrə uçot dərəcəsini 2,25 faiz səviyyəsinədək artırıb.**

Bu, 2009-cu ildən sonra ən yüksək dərəcə hesab olunur. Sentyabrda avrozonda inflyasiya səviyyəsi 9.9 faizədək yüksəlib. İstehlak bazarındakı yüksək qiymət artımları səbəbindən Avropa Mərkəzi Bankı uçot dərəcələrini ardıcıl ikinci dəfə artırıb. Bank növbəti iclasda da faiz dəhlizinin artırıla biləcəyini istisna etmir və gözləntilər yeni artımlar istiqamətindədir. Bəs Avropa Mərkəzi Bankının qərarı avronu möhkəmləndirəcəkmi?

**Millət vəkili Vüqar Bayramov deyib ki, bir müddət öncə kəskin ucuzlaşan Avropa pulu son günlər dollara nisbətən dəyər qazanmağa başlayıb. Deputat qeyd edib ki, son bir həftədə avro dollara nisbətən 2 faiz güclənib:** "Bununla belə, hələlik avronun kəskin möhkəmlənməsi gözlənilmir. Dolların səbət valyutalara nisbətən güclənməsi və Federal Ehtiyatlar Sisteminin (FED) uçot dərəcəsinin kəskin artırılması ilə bağlı qərarları investorların ABŞ puluna marağını yüksək saxlamaqdadır. Digər tərəfdən, son günlər mavi qazın qiymətində müəyyən azalmaların müşahidə edilməsinə baxmayaraq, Avropada enerji böhranı davam edir. Uzanan Rusiya-Ukrayna müharibəsi və yüksələn qiymətlər qədim qitə iqtisadiyyatına təzyiqlərin azalmasına imkan vermir. Bu il Avropa İttifaqında 4.1 faiz artım proqnozlaşdırılsa da, ilin sonunda 2 dəfə az artımın qeydə alınacağı gözlənilir".

**İsmayıl**

# Paşinyan şantaja çox meyillidir

## İrəvan Qərblə İran arasında manevr edir

**Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxması məsələsi günlərdir müzakirə mövzusudur. Parlamentin spikeri Alen Simonyan bildirib ki, əslində Ermənistan KTMT-dən çıxmaq məsələsini müzakirə etmir, reaksiya gözləyir. O, Ermənistanın kursu dəyişmək üçün heç nə etmədiyini vurğulayıb:**

"Amma bir fakt var ki, Ermənistan KTMT-ni yox, KTMT Ermənistanı tərk edir. Əgər belədirsə, o zaman KTMT bu barədə İrəvana məlumat verməlidir ki, başqa mexanizmlər tapılsın. Mən gözləyirəm ki, bizim KTMT-dən olan həmkarlarımız və əsas müttəfiqimiz erməni maraqları xəttinin tükəndiyini dərk edir və Ermənistanın artıq geri addım atmaq imkanı yoxdur. Biz Ermənistanın maraqlarını qorumaq üçün hər şeyi edəcəyik".

Onun sözlərinə görə, Ermənistan təşkilatın reaksiyasını gözləyir, indiki mərhələdə bu, siyasi reaksiyadır: "Gələcəkdə KTMT-nin regiondan çəkilmək qərarına gəldiyi ortaya çıxsa, o zaman faktla üzləşə bilərik. Amma Ermənistan hakimiyyəti bu gün belə bir məsələni müzakirə etmir. Biz hərəkət gözləyirik, reaksiya gözləyirik. Vəziyyət onu göstərir ki, qərar qəbul etməyimizə çox az vaxt qalıb".

Erməni politoloq Yervand Bozoyan da deyib ki, Nikol Paşinyanın siyasəti kökündən dəyişib. Son 30 ildə Ermənistanın heç bir keçmiş prezidenti Rusiyanın maraqlarına qarşı çıxış etməyib: "Bütün hakimiyyət nümayəndələri daha çox rusiyayönümlü, daha az qərbyönlü siyasət aparmağa çalışıblar. Çünki Ermənistanın Rusiya kimi təhlükəsizlik çətiri var idi. Bu gün isə Ermənistan Qərblə Rusiya arasında qarşıdurma mərkəzlərindən birinə çevrilib. Nikol Paşinyan bunun onun üçün faydalı ola biləcəyini düşünür, amma yox. Bundan ancaq Azərbaycan qazanır, çünki müharibədə qalib gələn tərəfdir. Belə rəqabət yalnız qalib tərəf üçün faydalıdır. Belə çıxır ki, Nikol Paşinyan burada da uduzub. O, öz seçimini etdi, Qərbə gedir, Rusiya buna dözməyəcək".

**Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev "Şərq"ə açıqlamasında deyib ki, Ermənistanda baş verən hadisələr çoxvektorlu istiqamətdə cərəyan edir. Partiya təmsilçisinin sözlərinə görə, Qərblə yaxınlıq edən Ermənistan eyni zamanda İranla geniş əlaqələr qurur:** "İrəvan Rusiya ilə sıx bağlarla qaynaq edilməsinə baxmayaraq, mütəmadi olaraq ondan uzaqlaşacağı barədə bəyanatlar verir. Buna rəğmən, Rusiyanın təsir dairəsində qalmaqda davam edir və bu yaxınlıq Rusiyanın tam çökməsinə qədər davam edəcək. Hətta Rusiya parçalanmaya məruz qalarsa, ona arxadan ilk zərbəni Ermənistan vuracaq. Hazırda isə Paşinyan Qarabağ məsələsində Rusiyadan tutarlı dəstək ala bilmədiyi üçün Qərblə İran arasında aktiv manevr etməkdədir. İran öz maraqları çərçivəsində Azərbaycana qarşı olsa da, bizim üçün real təhlükə yarada bilməz. Ermənistanın Rusiyanı KTMT-dən çıxacağı ilə şantaj etməsinin isə əsası yoxdur. İrəvan buna qərar versə belə proses bir neçə il davam edəcək. Ona görə də Paşinyanın ermənipərəst Zatulini və Marqarita Simonyanı arzuedilməz şəxs elan edərək ölkəyə buraxmaması ciddi problemlər yaratmayacaq. Eyni zamanda Paşinyan Azərbaycanla sülh müqaviləsini bu ilin sonunda bağlamaq istədiyini bəyan edib. Sentyabr hadisələrindən sonra dövlət başçısı İlham Əliyev Ermənistan hakimiyyətinə çox ciddi xəbərdarlıq edib. İlin sonuna qədər sülh müqaviləsi imzalanmasa da, bu istiqamətdə ciddi dönüş gözlənilir".

### Ermənistanın yaxın illərdə KTMT-dən çıxacağı real görünmür



**İsmayıl**





# “Başına dönüm, üzməyi öyrən”

## Nofəl Ağamalı əsl atasına layiq ömür yaşadı



**Ata ömründən cəmi 2 il çox yaşadı. Atası 47 yaşındaydı dünyadan köç edəndə. O isə 50 yaşında köçdü. Bütün ömrünü atası kimi yaşamağa, ona bənzəməyə, ata adını yüksəkdə tutmağa həsr etdi. Nofəl Ağamalıoğlu Əfəndinin həyatına nəzər saldıqda atası, Azərbaycan milli-azadlıq hərəkatının öncüllərindən, dissident jurnalist, ictimai siyasi xadim, şair, nasir Ağamalı Sadiq Əfəndiyə layiq ömür yaşadığı görünür.**

Atası dünyasını dəyişəndə Nofəlin 24 yaşı olub. Gənc bir insan hətta bu yaşda atasının razılığına, ata xeyir-duasına sahib olub. Ata oğlunun əsl vətəndaş, Vətən yolunda canını fəda etməyə hazır olduğunu görüb. Nofəl Qarabağ müharibəsi iştirakçısı, qazi idi. Atasının Azərbaycanın müstəqilliyi, dövlətçiliyin bərpası, demokratik mətbuatın yaranması uğrunda apardığı ictimai-siyasi mübarizəni, oğlu düşmənlə açıq döyüşdə, cəbhədə, güllə, mərmi atəşləri altında aparırdı. Hansı tərəfdən baxsan Əfəndilər ailəsi ömürlərini Azərbaycan uğruna fəda edənlərdir.

Həyata qəfil vida edən Nofəlin feysbuk profilindəki paylaşımlarının böyük hissəsi Azərbaycanla, Vətənlə bağlıdır. Gah Cümhuriyyət bayramını təbrik edir, bayrağa ehtiram göstərir, gah Rəsulzadələri xatırlayır, gah milli-azadlıq hərəkatının lideri Əbülfəz Elçibəyi. Gah da şəhid polis Həsən Salmanini. Və belə yazır: ”Hörmətli dostlar, diqqətinizə görə çox sağ olun, Allah keçənlərinizə rəhmət eləsin! Dünya yaxşılardan xali deyil, Azərbaycan polisində çox qeyrətli vətən övladları olub və dövlətçiliyimiz, müstəqilliyimiz və ərazi bütövlüyümüzü qoruyub, həlak olublar. Heç şübhə etmirəm ki, belə insanlarımız indi də polis sıralarında az deyil.

**”Belə bir vətənpərvər paylaşım edib mərhum Nofəl Ağamalıoğlu Əfəndi. Profilində yerləşdirdiyi fotosuna şərh yazanlara da təmkinlə, səbrlə, səmimiyyətlə, ehtiramla, hörmətlə cavab verir.**

”Allah qorusun, amma atanıza oxşada bilmədim sizi, yəqin ananıza oxşayırsınız” yazan xanıma, baxın, Nofəl necə cavab verir: ”Hicran Nasibova xanım, baxış bucağından asılıdı, indi siz atama oxşatmırsız, ola bilər başqa şəkildə oxşadarsız. Allah sizi də qorusun”. Hicran xanım da bu mehribanlıq qarşısında ”Ola bilər. Allah rəhmət eləsin atanıza. O, atamın, ümumiyyətlə evimizin əziz qonaqlarından idi” yazıb.

**Şahlıq xanımsa bunları yazıb:** ”Əzizim Nofəl, necəsiniz? Mənim üçün çox dəyərli olan anan necədir? Mənim əvəzimdən onu öpərsən. Qaldı ki atana oxşamağın, hər sarıdan ona layiq oğulsan və ona oxşayırsan, yəqin ki, mən düz olaram, çünki mən hamıdan çox görmüşəm”.

**Nofəl Ağamalıoğlu Efendi:** Şahlıq Əhmədli, təşəkkür edirəm, Şahlıq xanım. Salamınızı çatdırdım Nabat xanıma”.

Bu qədər səmimi, mehribancasına bir ünsiyyət yaradırdı Nofəl Ağamalıoğlu. Onu tanıyanlar, çevrəsində olanlar da Nofəli daim bu cür xatırlayır. Sakit təbiətli, səmimi, mehriban, böyüyə də, kiçiyə də ehtiram göstərən. Və əlbəttə, atasının layiqli davamçısı!

*Ağamalı Sadiq Əfəndinin bacısı Güllüzar xanımın qardaşıyla bağlı qələmə aldığı xatirələrdə bu misralar var:*

”Hər ölənə ağı deyib ağlamaq olmaz,
Ölümlər var, MİSRİ üstə, CƏNGİ üstədir.
Adam var ki, ölümə də qısqandım onu,
Ölüm gördüm həvəsimdən ölmək istədim.

Yenə deyirəm, Ağamalı kimi şərəfli ömür yaşamaq üçün yəqin ki, çoxları sonrakı ağılla çox şeyi qurban verməyə hazır olardı. Ancaq Ağamalı ömrünün zülm və məşəqqətlərinə hər oğul da dözə bilməzdi. Azərbaycan demokratik mətbuatının yaradıcılarından olan (1991-ci ildə ”Müxalifət” qəzetini yaradıb və qəzetin ilk baş redaktoru olub), vətən fədaisi Ağamalı Sadiq Əfəndi üçün iqtidarlı-müxalifətli Bütöv Azərbaycan və onun dövlətçiliyi var idi və o, ömrünün sonunadək Vətəninə və bu dövlətçilik prinsiplərinə sadiq bir ömür yaşadı”.

*Ağamalı Sadiq Əfəndinin oğlu Nofəl Ağamalıoğlu haqqında da eyni sözləri mübaliğəsiz söyləmək mümkündür. Ata ilə oğul, müəyyən mənada fərqli həyat yaşasalar da, hər ikisini birləşdirən Vətən sevgisi, Vətənə, Azərbaycan dövlətçiliyinə bağlılıqdır. Nofəl Ağamalıoğlu mətbuata verdiyi müsahibədə atası barədə ürəyində olanları danışmışdı:*

- Təbii ki, hər bir ata kimi, onun da öz övladları ilə bağlı arzuları var idi. Yaxşı təhsil almağımızı və ailə qurmağımızı görməyi istəyirdi. Bir də nəvə arzusundaydı. Uşaqları çox sevərdi. Hər dəfə məhəlləyə girəndə cibindən konfet çıxarıb uşaqlara paylayardı, balacalar da onu yaxşı tanıyırdı, görən kimi qışqırırdılar, ”Ağamalı babamız gəldi” deyib üstünə qaçışırdılar. Biz demək olar ki, onun arzularını yerinə yetirdik, mən ali təhsil aldım, qardaşım da hazırda oxuyur, hər ikimiz ailə qurduq, atamın nəvələri var. Amma təəssüf ki, atam bu günlərimizi görmədi. Bizim yeganə təskinliyimiz odur ki, o, qısa ömür yaşasa da, kişi kimi yaşadı, həyatını, sağlamlığını Azərbaycan naminə verdi, bunu onu tanıyanlar yaxşı bilir, özləri də vaxtaşırı deyirlər.

*Nofəl Ağamalıoğlu atasının ona həsr etdiyi şeiri də yada salmışdı:*

”Başına dönüm, üzməyi öyrən,
Öyrən, bu, dənizdir, batarsan, bala.
Dəniz adamları üzür, sürünmür.
Dəniz Füzuli kimidir - dibi görünmür...”

Nofəl Ağamalıoğlu atasının bütün arxiv materiallarını toplayıb kitab halına salmaq istədiyini, lakin buna imkanı çatmadığını da demişdi. Sonra da ”amma inanıram ki, günün birində bu kitabı ərsəyə gətirəcəyəm, inşallah”. Biz də inanırıq və ümid edirik ki, Ağamalı Sadiq Əfəndiyə layiqli kitab işıq üzü görəcək mütləq. Və o kitabda atasının ləyaqətli, vətənpərvər oğlu, qazi Nofəl haqqında da yazılacaq, mütləq. Ruhları şad olsun. Qaymaqlı kəndində uyuyan fədakar ata ilə oğulun. Allah rəhmət eləsin.

**Məlahət Rzayeva**

---

“Onun xarakteri, dili, miqyası çox geniş və sanballı idi”

# İsa Muğannanın ev muzeyinin yaradılmasına heç kəs mane olmamalıdır

## Mövlud Süleymanlı: “Belə bir şəxsiyyətin evinin muzey kimi rəsmiləşdirilməsi sorğu-sual yaratmamalıdır”

**İsa Muğannanın ev muzeyinə rəsmi status verilməsi təklif olunub. Bu təkliflə professor Nizami Cəfərov Azərbaycan Yazıçılar Birliyinin (AYB) XIII qurultayında çıxış edib. Onun sözlərinə görə, İsa Muğannanın ev muzeyinin rəsmi statusu yoxdur: ”Dünya şöhrətli yazıçımızın yaşadığı həmin evə rəsmi ev muzeyi statusu verilməlidir”.**

Bir müddət əvvəl isə bu məsələni mərhum yazıçının qızı, Sevinc Muğanna da mediada qabardıb, ölkə başçısına müraciət etmişdi: ”Atam İsa Muğannanın Ağstafada ev muzeyinin yaradılması ilə bağlı Ağstafa Rayon İcra Hakimiyyətinə yazılı şəkildə müraciət etdim. Onlar isə müraciətimlə maraqlanmadan, sadəcə bunun ”mümkün olmadığını” bildirən cavab məktubu göndərdilər”.

*S.Muğannanın sözlərinə görə, Ağstafa Rayon İcra Hakimiyyətindən bir nəfər belə olsun mərhumun qızının müraciəti ilə maraqlanmadan, müraciətə yazılı sürətdə rədd cavabı verməklə kifayətləniblər:* ”Hətta cavab məktubunda konstitusiyadan və qanunlardan sitatlar gətirərək, bunun mümkünsüzlüyünü izah etməyə çalışıblar. Bu mənə



ona görə təəccüblü göründü ki, mən onlardan mümkünsüz heç nə istəməmişəm. Həm ev, həm də ora yığılacaq kitab və eksponatlar hazır şəkildədir ki, bunu reallaşdırmaq Ağstafa Rayon İcra Hakimiyyətindən elə də böyük maddi vəsait və qüvvə tələb etmir. Mən ki onlardan atamın adına xiyaban və park salınmasını deyil, sadəcə, yaradıcı materiallarını qorumaq üçün ev muzeyinin yaradılmasını istəmişəm”.

Açıqlaması zamanı Sevinc Muğanna bildirib ki, mərhum yazıçının doğma kəndindəki ev muzeyinin yaradılması İsa Muğannanın özünün də arzusu olub: ”İsa Muğanna sağlığında mənə məhz o evdə əlyazmalarının və kitablarının qorunub saxlanmasını vəsiyyət etmişdi. Atam vəfat etdiyi zaman mən ona Muğanlıdakı ev muzeyində əlyazmalarını qoruyacağımla bağlı söz verdim. Amma görürəm ki, indi tək başına bunu bacarmayacağam”.

Mərhum yazıçının qızı həmçinin böyük yazıçı İsa Muğannanın ev muzeyinin yaradılmasına haqqı çatan sənətkarlardan olduğunu bildirərək, aidiyyəti qurumları sənətkarın xatirəsinin əbədiləşdirilməsində ona kömək etməyə çağırıb: ”Başda hörmətli prezidentimiz İlham Əliyev cənabları olmaqla, Mədəniyyət Nazirliyi və Ağstafa Rayon İcra Hakimiyyətinə görkəmli yazıçının Muğanlıda ev muzeyinin yaradılması ilə bağlı müraciət edirəm. Xüsusilə də 2023-cü ildə görkəmli yazıçımız İsa Muğannanın 95 illik yubileyi tamam olur. Düşünürəm ki, edibin 95 illik yubileyinin keçirilməsi ilə də bağlı dövlətimiz öz dəstəyini əsirgəməyəcək. İsa Muğanna sağlığında dövlət tərəfindən bütün mükafatlara haqlı olaraq layiq görülmüşdü. Vəfat etdikdən sonra xalq yazıçısının xatirəsinin əbədiləşdirilməsi baxımından ev muzeyinin yaradılması İsa Muğanna yaradıcılığına verilən ən böyük qiymət olardı”.

**Xalq yazıçısı Mövlud Süleymanlı isə ”Şərq”ə açıqlamasında İsa Muğannanın ev muzeyinə rəsmi status verilməsi təklifini alqışalayıq hesab edib:** ”O, Azərbaycan ədəbiyyatı üçün xüsusi bir çəkisi, yeri və rolu olan yazıçıdır. Biz bir yerdə işləmişik. Hər mənada böyük insan olub. Onun xarakteri, dili, miqyası çox geniş və sanballı idi. Onu deyim ki, İsa Muğannanın yaradıcılığı vaxtında layiq olduğu qiyməti almayıb. O, dünyaya çıxarılası bir yazıçıdır. Onun yaradıcılığında ədəbiyyatın heyrətedici, sarsıdıcı gücünü, havasını duymuşam. İsa Muğanna haqqında deyilən söz bu gün üçün yox, sabahlara, ən azı yüz il, min il sonralara deyilməlidi.

İsa Hüseynovun yaradıcılığı heç şübhəsiz, Azərbaycan bədii nəsrinin ən möhtəşəm zirvəsində yer tutan əsərlərlə müşayiət olunur və açığını etiraf edək ki, bu əsərlər olmasaydı, ədəbiyyatımızda böyük bir boşluq, dərin bir çat yaranardı. Çünki bu əsərlər təkcə ideya-bədii məziyyətləri ilə deyil, həm də ədəbiyyata, xüsusilə yeni nəsil ədəbiyyatına təsir etmək mənasında da böyük bir missiyanı yerinə yetirdilər.

Belə bir şəxsiyyətin evinin muzey kimi rəsmiləşdirilməsi sorğu-sual yaratmamalıdır. İsa Muğannaya ev verilməsi məsələsinin qanunqayda ilə nə əlaqəsi?! Burada konstitusiyalıq nə var ki?! Bu birbaşa mənəviyyat, qanacaqla tənzimlənən məsələdir. Məndən olsa, günü sabahdan onun evinin muzey kimi rəsmiləşdirilməsinə qərar verərəm. Amma görünür, mənim kimi adamların mövqeyi həlledici rol oynamır. İsa heç vaxt özünü reklam edən biri olmayıb. Çox qəribə bir xüsusiyyəti vardı, ancaq gecələr yazardı. Heç vaxt xüsusi imtiyaz arxasınca qaçmazdı”.

**Şəymən**

# İrəvanın yalnız imza atması qalıb

## Qarabağ torpaqları qarışına qədər Azərbaycanın nəzarətinə keçəcək



Ekspert: "Soçidə Rusiyanın vasitəçiliyi ilə keçiriləcək görüşdə sülh müqaviləsinin detalları müzakirə ediləcək"

**"Hraparak" nəşri məlumat yayıb ki, Ermənistanın Baş naziri Nikol Paşinyan bəzi dairələrə Putinin üçtərəfli görüş təklifi ilə bağlı danışıb. Baş nazir bildirib ki, oktyabrın 31-də Soçidə keçiriləcək üçtərəfli görüşdə, hətta ölkədə hakimiyyət dəyişikliyi təhlükəsi olsa belə, sülh müqaviləsinin Rusiya variantını imzalamayacaq.**

Paşinyan onu da deyib ki, xalq hakimiyyətin tərəfindədir və o, Rusiyanın təhdidlərindən qorxmur. O bildirib ki, Azərbaycan Prezidenti Əliyev də Qərb variantının əleyhinə olduğundan saziş yaxın vaxtlarda imzalanmayacaq. Siyasi şərhçi Qalust Qriqoryan da iddia edib ki, regiondakı mühüm məsələlərin əsas kuratoru daha Rusiya deyil: "Ermənistan hakimiyyəti anlayır ki, artıq bu işdə İran da heç nə edə bilməz. Bu iki ölkənin başı özlərinə qarışıb. Bu halda Bakı ilə İrəvan arasında əsas vasitəçi ABŞ-dır. Ermənistan hakimiyyəti son vaxtlar ciddi şəkildə tələsməyə başlayıb. Tez bir zamanda sülh müqaviləsini imzalamaq istəyir. Bunu ötən gün Ermənistan parlamentinin spikeri Alen Simonyan da dedi. O, İrəvanın bu işdə həvəsli olduğunu bildirdi. Bəzi mənbələrə əsasən, Rusiya bu işdə heç nə dəyişə bilməyəcək, baxmayaraq ki, Putin Əliyev və Paşinyanı sammitə çağırıb. Məsələyə nöqtəni Vaşinqton qoyacaq. Artıq sənəd də hazırdır. Razılaşmaya əsasən Qarabağ torpaqları qarışına qədər Azərbaycanın nəzarəti altına keçəcək. Qalıb İrəvanın qol çəkməsi. Aydındır ki, bu bizim üçün bu gün ən optimal yoldur. Respublikanı qorumaq üçün Qarabağı unutmalıyıq".

**Milli Cəbhə Partiyasının sədr müavini, politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə deyib ki, Rusiya tərəfini maraqlandıran Brüsselin vasitəçiliyinin qarşısını almaqla sülh sazişinə öz vasitəçiliyi ilə nail olmaqdır. Analitik vurğulayıb ki, bunun üçün praqmatik və beynəlxalq hüquqa söykənən addım atmır:** "Ermənistan Baş naziri Nikol Paşinyan bu görüşdə "Qarabağda sabitliyi və təhlükəsizliyi müzakirə edəcəyini qeyd edib. Göründüyü kimi Paşinyan Qarabağla bağlı yekun "status" məsələsini qaldırmır. Bu o deməkdir ki, Paşinyan Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır, Azərbaycanın tərkibində Qarabağda yaşayan ermənilərin təhlükəsizliyini müzakirə edəcək. Ermənistan baş naziri Azərbaycanın daxili işinə qarışa bilməz. O, imzalanmış bəyannamənin şərtlərinə əməl etməlidir. Ona görə də rəsmi Bakı Qarabağdakı ermənilərin təhlükəsizliyini Paşinyanla müzakirə etməməlidir. Bununla yanaşı Paşinyan Qarabağda separatçı rejimə 20 milyard dram kredit ayırıb. Bu vəsait mənzil tikintisi və bank sektoruna, həmçinin silahlı erməni birləşmələrinin saxlanmasına xərclənəcək. Soçi görüşündə Ermənistanın bu məsələlərə son qoyması tələb edilməlidir".

*Ekspert qeyd edib ki, Rusiyanın vasitəçiliyi ilə keçiriləcək görüşdə sülh müqaviləsinin detalları müzakirə ediləcək:* "Moskvanın planında Qarabağın yekun "statusu" olduğu üçün Azərbaycan tərəfindən belə bir plan qəbul edilmir. Amma bu görüşdə sərhədlərin delimitasiya və demarkasiyası və Zəngəzur dəhlizinin açılması məsələsində irəliləyişin olması mümkün ola bilər. Moskvanın son davranışları göstərir ki, Rusiya irəliyə doğru addım atmaq istəmir. Soçi görüşü Ermənistan rəhbərliyi tərəfindən də ciddi qəbul edilmir. Moskva Ermənistan-Azərbaycan məsələsinə yalnız öz geosiyasi maraqları prizmasından yanaşdığı üçün təşəbbüs Brüsselin əlinə keçib. Təbii ki, Soçi görüşündə Rusiya obyektiv mövqe tutarsa, regional mövqeyini gücləndirə bilər. Amma anti-Azərbaycan və türkfobiya siyasəti buna imkan vermir. Bundan əlavə, Kreml rəhbərliyi reallıq hissini itirib və geosiyasi reallıqları obyektiv qiymətləndirməkdən uzaqdır. Putinin Ukraynada apardığı işğalçı müharibə fonunda Cənubi Qafqazda sülh sazişini həyata keçirməsi mümkün görünmür. Soçi görüşündən sonra silahlı erməni birləşmələri Azərbaycan ərazisindən çıxarılmasa və Zəngəzur dəhlizi ilə bağlı irəliləyiş olmasa, belə bir görüş əvvəlki görüşlərin Moskva tərəfindən imitasiyalı davamı olacaq".

**İsmayıl Qocayev**



### Nazir müavini: "Bakı-Naxçıvan aviabiletinin qiyməti AZAL-ın xərclərini ödəmir"

**Bakıdan Naxçıvana gündəlik uçuşlar yerinə yetirilir.**

Bunu rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov deyib.

"Vətəndaşlar bilet üçün xərclədikləri 60 manata görə narazılıqlar edirlər. Lakin 60-70 manat AZAL-ın xərclərini ödənmir. Çünki xərclər bundan çoxdur", - deyə nazir müavini bildirib.

### Bir nəfəri vəfat edib

Son sutkada 36 nəfər COVID-19-a yoluxub



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 36 yeni yoluxma faktı qeydə alınıb, 43 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfəri vəfat edib.

*Azərbaycanda indiyədək ümumilikdə 823 100 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 812 849 nəfər müalicə olunaraq sağalıb, 9 942 nəfər vəfat edib, aktiv xəstə sayı 309 nəfərdir.*

# "O jurnalist qurban kəssin ki, 37-ci ildə doğulmayıb"

## Aqşin Yenisey: "Xalq yazıçılarına sözün qurbanı deyil, cəlladı olmaq irsi ötürülüb"



"Pul adı gələndə təşvişə düşmək nökər instinktidir"

**"Özü də neomarksist olan məşhur filosof Slovaj Zizek deyir ki, kommunist rejimlərdə sənət adamları rejim rəhbərlərinin hərəmləri rolunu oynayırlar. Bu vəziyyət aşağı-yuxarı bütün kommunist ideologiyasına söykənən ölkələrin reallığıdır. İndi bizdə də o kommunizm dənizi quruyub, dibinin bütün eybəcərlikləri üzə çıxıb".**

*Bunu "Şərq"ə açıqlamasında tanınmış şair Aqşin Yenisey Xalq yazıçısı Çingiz Abdullayevin AYB-nin qurultayı zamanı jurnalisti təhqir etməsinə münasibət bildirərkən deyib.*

Şair qeyd edib ki, onlara sözün qurbanı deyil, cəlladı olmaq irsi ötürülüb:

Xalq yazıçılarının biri mətbuatı "zəhər" adlandırır, o biri nifrətlə "niyə ölmürsüz" deyib aşağılayır. Bu, əslində stalindənqalma təfəkkürün bütün mətbuata ünvanladığı sualdır.

Onlar doğrudan da Azərbaycanı öz qarşılarında lal, müti görmək istəyirlər. Çünki sözün qurbanı deyil, cəlladı olmaq irsi ötürülüb onlara.

Guya, Dronqo üzr istəsə nə dəyişəcək? Bu gün Azərbaycanda təfəkkür, dünyagörüşü davası gedir. Pul adı gələndə təşvişə düşmək nökər instinktidir.

Bu adamları yuxarı başa keçirən hökumətin gerbi oraq-çəkic idi. İndi guya aristokratdırlar, amma bütün davranışları Nitsşenin ressentiment dediyi qisasçılıq hissi üzərində qurulub. Bu hiss dövr dəyişdikcə müxtəlif formalarda təzahür edir.

Onlar kimi düşünməyən iki gənci öz birliklərindən qovmaqla hədələyirlər. 1937-ci il olsaydı, o sual verən jurnalisti şərləyib tutduracaq, o etirazçı iki gənci də güllələtdirəcəkdilər. Şükür ki, zaman onların xeyrinə işləmir. O jurnalist getsin qurban kəssin ki, 37-ci ildə doğulmayıb".

**Nihat Müzəffər**

**"Mənim kimi birisinə o sualı vermək yersiz idi. Mən pul xərcləyən, onu bölüşdürən deyiləm. Ona görə də dediklərimdən peşman deyiləm".**

Bunu AYB sədrinin müavini, Xalq yazıçısı Çingiz Abdullayev ona sual verən jurnalistləri təhqir etməsi faktına münasibət bildirərkən deyib.

Ç.Abdullayev əlavə edib



# "Çingiz müəllim çox yorulmuşdu"

## Qəşəm Nəcəfzadə: "Keçmiş və gələcək zamana görə, həm jurnalist, həm də Çingiz Abdullayev haqlıdırlar"

ki, sözünün üstündə dayanır: "Bəli, o sualı verən jurnalist utanmalı idi. Mən sözümün üstündə dayanıram".

Xatırladaq ki, "Baku TV" əməkdaşının AYB-nin qurultayı üçün ayrılan 200 min manatın necə xərclənməsinə dair sualı xalq yazıçısını özündən çıxarıb. O, həmkarımızı təhqir edib. Ç.Abdullayev jurnalistə "Niyə ölmürsən, utanmırsan" deyə cavab verib. Xalq yazıçısının bu açıqlaması sosial şəbəkə və mediada haqlı tənqidlərə yol açıb.

**Məsələyə münasibət bildirən şair Qəşəm Nəcəfzadə "Şərq"ə bildirib ki, keçmiş və gələcək zamana görə, həm jurnalist, həm də Çingiz Abdullayev haqlıdırlar:** "Dünən işlərin çox olması ilə bağlı gərginlik var idi. Jurnalistlər isə çox sual verirdilər. Çingiz müəllim də dəhşətli dərəcədə yorulmuşdu. Ola bilsin ki, onun əsəbi vaxtına düşüb. Doğrudur, "Media haqqında" qanunda hər bir jurnalistin informasiya almaq hüququ var və hər birimizin onların sualına cavab vermək borcumuzdur. Lakin ümumi baxdıqda heç jurnalistin verdiyi sual da alqışalayıq deyil. Çünki ayaqüstü, maliyyə məsələsi ilə bağlı sual vermək etik davranışa ziddir. Əgər həmin jurnalist Çingiz müəllimlə bir masa arxasında oturub müsahibə alsaydı, daha yaxşı olardı".

**Nihat Müzəffər**

# 4 filmin puluna 2-si çəkilib

## Hesablama Palatasının araşdırmalarında nöqsanlar üzə çıxıb





**Bu günlərdə gündəmdə olan və müzakirə edilən məsələlərdən biri Hesablama Palatasının dövlət büdcəsindən film çəkilişləri üçün ayrılan vəsaitlərin xərclənməsində aşkarladığı nöqsanlardır.**

Hesablama Palatasının məlumatına görə, dövlət sifarişi ilə çəkiləcək filmlərin seçim prosedurlarının təkmil olmaması filmlərin çəkilməsi üçün tələb olunan vəsaitlərin əsaslı şəkildə proqnozlaşdırılmaması ilə nəticələnib.

Bildirilib ki, nəticədə bəzi hallarda filmlərin 1 vahidinin nəzərdə tutulmuş dəyəri ilə faktiki icra edilmiş göstərici arasında nəzərəçarpacaq fərqlər formalaşıb.

### Nəriman Əbdülrəhmanlı: “Bu işlər vaxtında görülmədiyi üçün pozuntular yaranıb”

**Yazıçı, Azərbaycan Kinematoqrafçılar İttifaqının üzvü Nəriman Əbdülrəhmanlı ”Şərq”ə açıqlamasında Palatanın hesabatı ilə tanış oduğunu və peşəkar auditorlar hazırladıqlarına görə şübhə eləməyə heç bir əsas olmadığını deyib:** ”Güman ki, qeyd olunan pozuntular var. Kino təkcə sənət deyil, həm də iqtisadiyyatdı, yəni maliyyə, təşkilat tərəfi də var. Ola bilsin ki, həqiqətən, 4 film üçün ayrılmış vəsait az olduğuna görə 2 film çəkilib. Əvvəla, vəsait ayrılanda buna etiraz etmək, əsaslandırmaq lazım idi, ya da vəsaitləri birləşdirəndə. Əlaqədar qurumlarla razılaşdırmaq lazım idi. Bu işlər vaxtında görülmədiyi üçün pozuntular yaranıb. Hər halda, kino inzibatçıları, prodüserlər bu məsələlərdə kinonun sənət olmasını əsas gətirib yaxa qurtara bilməzlər.

Televiziyalar öz filmlərini çəkib verir deyə, dövlət kinostudiyalarında çəkilən film bazarı məhduddur kimi iddialara gəldikdə isə yazıçı deyib ki, dünya praktikasında filmləri əsasən müstəqil studiyalar, prodakşnlar istehsal edir, televiziya kanallarına satırlar: ”Bu da həmin qurumların kifayət qədər maliyyə vəsaitinə malik olmaları ilə əlaqədardır. Bizdə isə kino, başlıca olaraq, dövlətin əlindədir, dövlət studiyasının dövlət televiziyasına film satması məqbul sayılmır. Ona görə də dövlət vəsaiti ilə çəkilən filmlər gəlir gətirə bilmir, televiziyalar da özləri film çəkib özləri nümayiş etdirirlər, yenə ortada gəlir olmur. Beləcə, əksər filmlər yalnız film çəkmək xatirinə istehsal olunur. Müstəqil qurumlar isə o qədər güclü maliyyə vəsaitinə malik deyillər ki, bazar formalaşdıra bilsinlər. Nəticədə də indi mövcud olan vəziyyət yaranır”.

**Şəymən**

# Metroda gediş haqları artırılmayacaq

## Tarif Şurasına müraciət edilməyib

**Bakı metropoliteni metroda gediş haqlarının bahalaşması ilə bağlı Tarif Şurasına müraciət etməyib.**

Trend-in məlumatına görə, bunu Bakı Metropoliteni Qapalı Səhmdar Cəmiyyətinin İdarə heyətinin sədr müavini Hidayət Məmmədov bu gün metronun 55 illiyi ilə bağlı sərgi zamanı jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, hələlik qurumda bu barədə müzakirə aparılmır.

”Bakı metropoliteni bu barədə müraciət etməyib və yaxın vaxtlarda da müraciət etməyəcək”, - deyə məlumatda qeyd olunub.

# Pulu kart hesabından oğurlanıb

## Şəhid Səbuhi Əhmədovun qardaşına qarşı dələduzluq edilib



**”Şəhid Səbuhi Əhmədovu qardaşı Sənan Əhmədova qarşı fişinq halı olub, pulu kart hesabından oğurlanıb”.**

Bu barədə texnobloger Fərid Pərdəşünas sosial şəbəkədə məlumat yayıb.

O deyib ki, Sənan Əhmədova xarici nömrədən gələn zənglə yardım ediləcəyi deyilib və kart məlumatları istənilib: ”Kart məlumatlarını verdikdən sonra Sənandan 3D təhlükəsizlik kodu da alınıb. Nəticədə kartda olan bütün pullar oğurlanıb”.

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin şöbə rəisi, polis mayoru Elşad Hacıyev bildirib ki, məsələ DİN tərəfindən nəzarətə götürülüb: ”Hazırda araşdırma aparılır. Nəticəsi ilə bağlı məlumat veriləcək”.

# Köhnə binalar sökülüb əvzində parklanma yerləri salınacaq

## İşbazlar yeni binalar inşa etdikləri vaxt az qala bir qarış yerlərindən belə güzəşt etmək istəməyiblər



**Bakıda köhnə binaları söküb əvəzində parklanma yerləri sal ına bilər. Bunu nəqliyyat sahəsinə dair məsələlərin müzakirəsi zamanı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İctimai şuranın sədr müavini Fərhad Əyyubov bildirib.**

”Keçmiş Nəqliyyat Nazirliyinin vaxtında çoxlu avtobus qarajları mövcud idi. Sonra bunların hamısını söküb yerində ”novostroyka”lar tikdilər”, - deyə F.Əyyubov əlavə edib.

Nəqliyyat üzrə ekspert İlqar Hüseynlinin fikrincə, parklama yerlərinin az olması müasir şəhərsalmanın yaratdığı problemlərlə bağlıdır: ”Bakı şəhəri yenidən tikildiyi dönəmdə şəhərin avtomobil yükünün artması heç kim tərəfindən nəzərə alınmayıb. Bununla yanaşı işbazlar yeni binalar inşa etdikləri vaxt az qala bir qarış yerlərindən belə güzəşt etmək istəməyiblər. Əksinə, bəzi binalar tikilən zaman piyada keçidləri də ləğv edilərək tam avtomobil yolunun kandarına qədər zəbt edilib. Yaranmış vəziyyətə görə yolun hər iki tərəfində avtomobilləri park edən sürücülər isə gözlənilən problemin yaranmasına səbəb olurlar. Ona görə də şəhər tıxaclardan nəfəs ala bilmir. Sürücülər də yaranmış vəziyyətdən şikayətçidir, sakinlər də. Bütün böyük şəhərlərdə belə bir fikir var ki, əgər parklanma sahəsi yaxşı idarə olunmursa, bu da şəhərdə nəqliyyat sistemini iflic vəziyyətə gətirib çıxarır”.

**Şəymən**

**“Qanun” Nəşrlər Evi “endirimli kitab” kampaniyasını davam etdirir. İndiyədək bir neçə dəfə təşkil olunmuş kampaniyada 1, 2 manata minlərlə kitab satışa çıxarılıb. Kitabsevərlər bu fürsətlərdən daim yararlanıblar. ”Qanun” Nəşrlər Evi oxuculardan gələn çoxsaylı təklifləri nəzərə alaraq, nəşriyyatın iş saatını axşam saat 8-ə kimi uzadıb.**

*Kampaniya barədə ”Şərq”ə danışan ”Qanun”*



# Kitab həvəskarları endirimdən yararlanırlar

## “Qanun”un 1-2 manatlıq kampaniyasının effekti çox müsbətdir

*Nəşrlər Evinin sahibi Şahbaz Xuduoğlu deyib ki, endirim kampaniyasına düşən kitabların siyahısı daim yenilənir. Naşir bildirib ki, 1-2 manatlıq kampaniyanın effekti çox müsbətdir:* ”Kitab həvəskarları bu endirimdən yararlanırlar. Xeyli vaxtdır qalmış kitabları da endirimə salmışıq ki, onların da alışın da canlanma olsun. Bəzi hallarda çox yaxşı kitabları sırf qiymətin baha olmasına görə almırlar. Maraq az olur. Amma belə endirimlər olanda həmin kitablar da satılır və onlara maraq yaranır. O baxımdan belə kampaniyalar oxucular üçün faydalıdır ki, onlar ucuz qiymətə kitablar əldə edirlər. 50 qəpiyə, 1 manata kitablar alırlar. Həm də nəşriyyatın özü üçün də hərəkətlilik olur. Kampaniyamızın 2-ci günüdür və 10 gün davam edəcək”.

**Ş.Xuduoğlu kitab satışı ilə bağlı təkliflərə, xüsusən ”endirim kampaniyaları rayonlarda keçirilsin” çağırışına münasibət bildirib:** ”Oxuculardan gələn təklifləri dəyərləndiririk. Məsələn, iş saatının uzadılmasını nəzərə aldıq və nəşriyyatı axşam saat 8-ə kimi açıq saxladıq. Amma nəşriyyatın rayonlara getməsi, orada kitab satışı təşkil etməsi çox baha başa gəlir. Məsələn, ötən il Gəncəyə getdik və 800 manat ziyanla gəldik. Baxmayaraq ki, xeyli kitab da satmışdıq, amma ziyan çox oldu. Oteldə qalmaq, yemək-içmək, yol məsrəfi və s. bunların hamısına pul gedir. Əgər yerlərdə bunu təşkil edənlər olarsa, maddi tərəfini qarşılayarsa, biz rayonlarda da kitab satışını həyata keçirərik”.

**İsmayıl Qocayev**

# Türkçülüyün üçlü formulu

## İdeologiyanın keçmişi, bugünü və gələcəyi



Həyat Hacıyeva

**Hər bir xalqın inkişaf yolunda onun ictimai, siyasi, dini görüşlərinin formalaşmasının arxasında güclü bir ideologiya dayanmaqdadır. Bu ideyalar isə bir an içərisində cəmiyyət tərəfindən qəbul olunmur, bunun üçün müəyyən zaman kəsimində düşüncənin toplumun əsas özəyi tərəfindən qavranılması lazımdır. Beşər tarixinə nəzər yetirdikdə bu kimi ideyaların bir çox nümunələrinə rast gəlirik.**

Məsələn, "Divide and conquer" - "Parçala və hökmranlıq et", "Ein Volk, ein Reich, ein Führer" - "Tək Xalq, tək İmperiya, tək Lider", "Libert?, ?galit?, fraternit?" - "Azadlıq, bərabərlik, qardaşlıq" və başqa formullar xalqların gələcəyinə fərqli şəkillərdə təsir etmişdir. Təbii ki, bu ideologiyaların müsbət və mənfi cəhətləri müzakirə edilə bilər, lakin burada əsas məsələ formulun cəmiyyət tərəfindən hərtərəfli şəkildə qəbul edilməsi və ona uyğun olaraq ictimai-siyasi fikrin formalaşmasıdır. Azərbaycan və bu coğrafiyada yaşayan digər türk xalqları üçün mayak rolunu oynayan formul isə "türkləşmək, müasirləşmək, islamlaşmaq" kimi adlanmışdır. İdeoloji sistem 150 ildən artıq bir dövr ərzində türk dünyasında təkmilləşdi, özü içərisində yeniləndi. XX əsrin əvvəllərində isə Azərbaycan xalqı üçün siyasi məna qazanmağa başladı. Bunun nəticəsidir ki, Azərbaycan Xalq Cümhuriyyəti dönəmində üçlü formulun prinsiplərinə uyğun olaraq dövlət bayrağı hazırlandı. Bu isə Azərbaycan bayrağının dalğalandığı hər bir yerdə həmin düşüncənin yaşaması deməkdir. Burada bir neçə sual meydana gəlir: "Türkləşmək, müasirləşmək, islamlaşmaq" üçlü formulu necə oldu ki, xalqın ictimai-siyasi həyatına bu şəkildə təsir etdi və bu ideologiyanın arxasında hansı düşüncə adamlarımız nə kimi işlər görmüşlər?

Bu sualların ətraflı cavablarını ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor Bədirxan Əhmədlinin "Türkçülüyün üçlü formulu: nəzəri və tarixi aspektləri" adlı monoqrafiyasına nəzər yetirdikdə almaq olur. Altı bölümdən ibarət olan monoqrafiyada həm ideyanın nəzəri hissəsi, həm də triadanın komponentləri ayrı-ayrılıqda təhlil olunur. Burada daima xalqın yüksəlməsi üçün çalışan ədiblərimiz sadəcə bədii yaradıcılıqla məşğul olmadığını, eləcə də milli ideologiyaya sahib çıxan vətəndaşlar olması faktı göstərilir. B.Əhmədli

M.F.Axundzadə, Ə.Süavi, C.Əfqani, Y.Akçura, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Z.Göyalp, M.Ə.Rəsulzadə kimi ədiblərin üçlü formulun komponentləri haqqında düşüncələrini araşdırır. İlk olaraq professorun monoqrafiyada ideyanın müəllifinin kim olması məsələsini tədqiq etməyini nəzərdən keçirək. B.Əhmədli doğru bilinən yanlış bir məqamı düzəltməyə çalışır. Belə ki, bəzən bilərəkdən (çünki araşdırmaq və həqiqəti çatdırmaq çətin prosesdir!) və ya məlumat azlığından bu formulun müəllifinin Əli bəy Hüseynzadə olduğu bildirilir. Professor isə

Ə.Hüseynzadənin bu ideologiyanın yayılmasında danılmaz xidmətləri olduğunu bildirərək, üçlü formulun sadəcə ədibin düşüncəsindən yaranmadığını da qeyd etmişdir. Ə.Hüseynzadəyə İ.Qaspıralının "Dildə, fikirdə, işdə birlik" formulu və

Y.Akçuranın "Üç tərzi-siyasət" (Siyasətin üç yolu) əsəri onun üçlü formul haqqında olan düşüncələrinin dərinləşməsində böyük rol oynamışdır. B.Əhmədli bu məqamda Türkiyə, Tatarıstan, Krım və Azərbaycandakı tədqiqat işlərinə nəzər yetirildikdə ümumi olaraq triadanın müxtəlif ədiblərin fikirlərinin toplamı nəticəsində bu qədər yayıldığını və inkişaf etdiyini bildirir. Onun fikrincə, əsas məsələ ideyanı ilk kimin işlətməsi deyil, formulun təkmilləşdirilməsində kimlərin nə şəkildə iştirak etməsidir. Çünki bir düşüncənin yayılması, xalqın təfəkküründə əsaslı yerə sahib olması sadəcə bir nəfərin adıyla bağlı ola bilməz. İstər ədəbi, istərsə də siyasi sahədə öz sözlərini demiş ziyalılarımızın düşüncələri əsasında zamanla formalaşan üçlü formul, xalqın ideyanı sahiblənməsi ilə bugünlərə qədər gəlib çıxmışdır.

B.Əhmədli müasir dövrümüzə qədər gələn ideyanın qorunmasının o qədər asan olmadığını da bildirir. XX əsrin əvvəllərindən Sovet hakimiyyəti qurulana qədərki dövr ərzində üçlü formul Azərbaycan ədəbiyyat və siyasətinə o qədər dərin nüfuz etmişdir ki, 1937-ci il repressiya hadisələri belə bu konsepsiyanı sonlandıra bilməmişdir. Düzdür, müstəqillik illərinə qədər olan zaman kəsimində bu ideologiyanın üzərində çox durulmamış, unutdurulmağa çalışılmışdır. Lakin sözün əsl mənasında "Bir kərə yüksələn bayraq bir daha enməz" düşüncəsi nə qədər qadağa edilsə də günümüzədək enerjisini qoruyub saxlayıb. Qanla və təhdidlə bir zaman kəsimində adı hallanmasa belə xalqın hafizəsində yer edindiyindən heç bir qorxu, senzura onu tamamilə yox edə bilmədi.

Monoqrafiyada xronoloji ardıcıllıq gözlənilməklə ilk tədqiq edilən hissə müasirləşmək komponentidir. Maraqlıdır ki, türkçülükdən də əvvəl avropalaşmaq, yeniləşmək ön plana çıxmışdır. Avropadakı düşüncə inqilabı türk xalqlarının yaşam tərzinə, iqtisadi və siyasi münasibətlərinə böyük təsir göstərmişdir. M.F.Axundzadə yeniləşməni müsbət qiymətləndirərək xurafatın qarşısında dayanmışdır. B.Əhmədli qeyd edir ki, ədibin istər bədii, istər elmi, istər publisistik əsərlərində qərbləşmə meyilləri güclüdür. O, müasirləşmək üçün görülməli olanın təqliddən ibarət olmamasını, bu mənada islami reformun həyata keçirilməsini önəmli hesab edirdi. C.Əfqani də Türkiyə və Azərbaycan siyasi təfəkkürünə yeni nəfəs gətirən şəxsiyyətlərdən biridir. B.Əhmədlinin də

qeyd etdiyi kimi, alim Qərblə Şərqin birliyindən yaranan gücün türk xalqlarını fikri azadlığa çıxaracağını bildirirdi. Ziya Göyalp da "Türkçülüyün əsasları" əsərində Qərb mədəniyyətinin, yeniləşmənin müsbət cəhətlərini göstərmişdir. Onun düşüncəsində avropalaşmaq öz kimliyini unutmaq demək deyildir, əksinə, özünə geri qayıtmaq üçün əvəzsiz vasitədir. Eynilə, yaponlar kimi türklər də milli-mədəni keçmişlərini unutmamaqla birgə gələcəyə müasir şəkildə addımlamalıdır. XX əsrin əvvəllərində ideyanın siyasi mahiyyətinin güclənməsi ilə birlikdə fərqliliklər də özünü göstərməyə başladı. Bu mənada B.Əhmədlinin vurğuladığı daha bir məqam "türkləşmək, islamlaşmaq, müasirləşmək" formulunda üçüncü yerdə olan müasirləşmək prinsipinin M.Ə.Rəsulzadə dönəmində ikinci yerdə göstərilməsidir. Bu isə ideologiyada yeni bir mərhələ yaratdı və bayrağımızda da bu şəkildə əks olundu. Üçlü formulun digər prinsiplərindən olan türkləşmək özünün həm siyasi, həm də ictimai dayaqları ilə cəmiyyətə təsir gücü çoxdur. B.Əhmədli burada türkçülük hərəkatının Rusiya torpaqlarında ruslaşdırma və xristianlaşdırma cəhdlərinə qarşı gəlindiyi dövrdən başlandığını qeyd edir. Eləcə də Ziya Göyalpın araşdırmalarına istinadən Avropada türk xalqlarının tarixinin öyrənilməsinə böyük maraq olduğuna diqqət çəkir. Bu məsələ isə bizə heç də təəccüblü gəlməməlidir, çünki istər Rusiya, istərsə də Avropa xalqları hər daim türklərlə münasibətdə idi. Bu münasibət bəzən müttəfiqliklə, bəzənsə müharibələrlə sonlanmışdır. Ancaq dəyişməyən tək şey odur ki, hər iki tərəfin də türklərin Avrasiyada hakimiyyətinin uzun ömürlü olmasını bilməsi və ona uyğun şəkildə hərəkət etməsidir. Maraqlı bir cəhət də odur ki, türklərin də Avropa və Rusiyanın özlərinə nələr qatacaqlarını bilməsidir. Bu özünü üçlü formulda bariz şəkildə göstərir. Türk xalqları haqqında danışdığımız milliyyət, azadlıq kimi anlayışları Avropadan mənimsəmişdir. Azərbaycan türklərinin özünütanıma prosesində əvəzsiz xidmətləri olan ədibimiz isə Ə.Hüseynzadə olaraq göstərilir. "Türklər kimdir və kimlərdən ibarətdir" əsərində, publisistik yazılarında, "Füyuzat" jurnalında da bu hiss olunur. Monoqrafiyada vurğulandığı kimi, onun yaradıcılığında ideolojidən daha çox türkçülüyün elmi, maarifçi aspektləri təhlil olunur. Siyasi türkçülük yolunda daha sonra Əhməd bəy Ağaoğlu, Məhəmməd Əmin Rəsulzadə və digər ədiblərimiz ideyalar ortaya qoydular. Türk əsilli xalqların islam dini ilə tarixi bağlılığı üçlü formulun sonuncu prinsipi olan islamlaşmaq ideyasını yaratdı. Siyasi İslamçılıq Osmanlıda olduğu qədər Azərbaycanda rəğbət görməməsi ilə birlikdə, yenə də xalqın dini inancında əsas yeri tutmaqda idi. Bunun sübutu isə M.F.Axundzadənin türk xalqlarının birliyini daha da möhkəmləndirmək üçün yeni əlifba islahatı hazırlaması, ancaq Osmanlı hökumətinin bu yeniliyin dinə qarşı edilmiş bir hərəkət olaraq görməsidir. Axundzadədən sonrakı dövrlərdə Azərbaycan ictimai fikrində onun qədər kəskin şəkildə dini ideologiyaya qarşı fikirlər səsləndirilmirdi. Ancaq H.Zərdabi, C.Əfqani, Ə.Hüseynzadə Ə.Ağaoğlu kimi ədiblərimiz dini xurafatın xalqı məhvə sürüklədiyini, buna görə nicatın və aydınlanmanın dini islahatlardan keçdiklərini anlayırdılar. B.Əhmədli M.Ə.Rəsulzadənin də dini ideoloji düşüncələrinə yer verir. Rəsulzadəyə görə, din dilin dolayı yolla xalqın yaşaması üçün ən önəmli vasitədir. "Tutacağımız yol" məqaləsində islam dininin türklər üçün müqəddəsliyindən bəhs edərkən, "Getdiyimiz yol"da isə dini islahatların qaçınılmaz reallıq olduğunu vurğulayır. Buradan belə bir nəticəyə gəlirik ki, islamlaşmaq prinsipi də üçlü formulda öz yerini qoruyub saxlayır. Azərbaycan xalqı və dövləti olaraq dini etiqatlarımızı yerinə yetirərək, digər dinlərə də hörmətlə yanaşaraq türk kimliyimizə yaraşan şəkildə yola davam etməliyik. Monoqrafiyanın ən maraqlı hissəsi bizim fikrimizcə altıncı bölümdür. Müəllif tərəfindən "Gələcəyə baxış" olaraq göstərilən bu hissədə üçlü formulun bugünkü vəziyyəti və gələcəkdə olacaq dəyişimləri izah edilir. Professor formulun yenilənmiş konturlarını "Turançılıq, Avrasiyaçılıq, Modernçilik" olaraq görür. İlk olaraq Turançılıqdan başlayan B.Əhmədlinin də bildirdiyi kimi, əslində prinsip üçlü formulun dördüncü qolu kimi dəyərləndirilə bilər. Buradakı məqsəd türk xalqlarının tarixi köklərinin unudulmaması və onların bir çətir altında birləşdirilməsidir. Türk Dövlətlər Təşkilatının bugünkü durumu da buna doğru yol gedir. Nəticə etibarı ilə siyasi cəhətdən türk dövlətlərinin birləşib bir dövlət halında olması mümkün görünmür. Əsas məsələ mövcud üçlü formul ideologiyasını qorumaqdır. Qloballaşan dünyada öz keçmişini, yaxınlarını, müttəfiqlərini unutmadan irəliyə doğru addımlamaq türk dünyasının qarşısında duran məqsəddir. Avrasiyaçılıq isə turançılıqdan bir qədər fərqlənməkdədir. Burada Türk-Slavyan birliyinin önəmi vurğulanır ki, bu da bizə son zamanlarda yaşanan xarici siyasi prosesləri xatırladır. Avrasiyada geniş coğrafi əraziyə yayılmış bu xalqların nümayəndələri qarşılıqlı əlaqə ilə varlığını davam etdirir. Modernçilik dedikdə isə artıq müasirliyin təkcə Avropa ilə məhdudlaşmadığını və bütün mədəniyyətlər, xalqlardan nələrinsə öyrənilməsinin vacibliyi vurğulanır. Ən sonda gəldiyimiz qənaət belədir ki, dəyişən dünya şərtlərinə uyğun olaraq çıxılan bu uzun yolda türk xalqlarının birliyi üçün hansı addımlar atılacağını izləməklə bərabər, bu ideologiyanı da qoruyub saxlamaq, müxtəlif ayrımları kənara qoyub ortaq məxrəcdə qərarlaşmaq lazımdır. Bunu da B.Əhmədlinin monoqrafiyanın sonunda qeyd etdiyi kimi, zaman özü göstərəcək. Biz gənclərin üzərinə düşən ən böyük vəzifə bayrağımızın üzərində dalğalanan rənglərin mənalarını dərk etməklə, ona sahib çıxıb təkmilləşdirərək gələcəyə türk keçmişimizi unutmadan, modern düşüncə tərziylə və digər xalqlarla birlikdə addımlamaqdır.



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**



# Çətin həyat şəraitində yaşayan uşaqlara dəstək lazımdır

## Qarşıda duran əsas vəzifə ailə dəyərlərinin qorunması, ailənin cəmiyyətdə rolunun yüksəldilməsidir

**Gəncə şəhər Heydər Əliyev Mərkəzində "Çətin həyat şəraitində olan uşaqların müdafiəsi və yerli mexanizmlərin təkmilləşdirilməsi" mövzusunda regional konfrans keçirilib.**

"Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nın və "Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair 2020-2023-cü illər üçün Milli Fəaliyyət Planı"nın icrası məqsədilə təşkil edilən konfransda zorakılığa məruz qalmış uşaqların hüquq və mənafelərinin qorunması, məişət zorakılığı baş vermiş ailələrdə uşaqların hüquqlarının müdafiəsi, qanunvericilikdə nəzərdə tutulmuş yardım və xidmətlərlə təmin edilməsi, bu sahədə qurumlararası əlaqələndirmənin gücləndirilməsi, zorakılıq törədənlərlə işin təşkili və mövcud boşluqların aradan qaldırılması istiqamətində müzakirələr aparılıb. Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov konfransı açaraq bildirib ki, təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət ailə siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. O qeyd edib ki, ölkəmizdə dövlət ailə siyasəti milli-mənəvi dəyərlərdən qaynaqlanır. Bütün sahələrdə qadınların, qızların və uşaqların hüquqlarının müdafiəsi üçün geniş imkanlar yaranıb. N.Bayramov əlavə edib ki, Dövlət Komitəsinin qarşısında duran ən mühüm vəzifələr ailə dəyərlərinin qorunması, ümumən ailənin cəmiyyətdə rolunun yüksəldilməsi və rifahının artırılmasıdır: "Bu isə bir daha möhtərəm Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın ailələrə olan diqqət və qayğısının bariz nümunəsidir" deyə o, əlavə edib.

Dövlət Komitəsinin sədri Bahar Muradova ölkəmizdə insan hüquqları sahəsində ən dinamik inkişaf edən istiqamətlərdən birinin məhz uşaq hüquqları olduğunu diqqətə çatdırıb. Bu məsələlərin çox sayda dövlət orqanlarının səlahiyyət dairəsinə daxil olduğunu qeyd edən sədr, komitənin də öz növbəsində bu sahədə fəaliyyəti əlaqələndirən qurum olaraq, qanunvericiliyin təkmilləşdirilməsi, effektiv mexanizmlərin formalaşdırılması, sahə mütəxəssislərinin peşəkarlığının artırılması istiqamətində gördüyü işləri, eyni zamanda uşaq hüquqlarının müxtəlif aspektləri ilə bağlı araşdırma və təhlillər aparıldığını vurğulayıb: "Bunlar uşaqlara qarşı zorakılıq, uşaq nikahları, uşaqlar arasında narkotik və psixotrop maddələrdən istifadə, regionlarda insan alveri probleminin sosial-psixoloji aspektləri, mövcud ailə münasibətləri, uşaqlar arasında internetdən istifadə, küçə həyatına məruz qalan uşaqlar, intiharlar kimi mövzulara həsr edilib". Dövlət uşaq siyasətinin hüquqi əsaslarından bəhs edən B.Muradova "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nın əsas istiqamətlərindən birinin çətin həyat şəraitində, baxımsız və sosial təhlükəli vəziyyətdə olan uşaqların sosial müdafiəsi və reabilitasiyası olduğunu söyləyib. Həyata keçirilən tədbirlərdən, yaradılan reabilitasiya mərkəzləri, sığınacaqlar, qaynar xətt və dəstək xidmətlərindən bəhs edən sədr, mövcud uşaq müdafiə mexanizmlərinin daha təkmil və müasir tələblərə uyğun formalaşdırılması, hər bir uşağın maraq və ehtiyaclarının nəzərə alınması üçün qarşıda yeni çağırışların, vəzifələrin durduğunu bildirib. B.Muradova məsələyə daha operativ və çevik reaksiya vermək üçün qurumlararası əlaqələndirmənin, eləcə də media və ictimai təbəqələrlə işin daha səmərəli təşkilinin, xüsusilə də işğaldan azad olmuş ərazilərdə fəaliyyəti intensivləşdirməyin və bu sahədə sosial-psixoloji xidmət işini təşkil etməyin əhəmiyyətindən danışıb. Ölkəmizdə uşaqların rifahı üçün həyata keçirilən tədbirlərə kölgə sala biləcək boşluqların aradan qaldırılmasında səyləri birləşdirməyi, daha əzmlə çalışmağı arzu edib.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Hidayət Abdullayev bildirib ki, bir çox ölkələrdə olduğu kimi respublikamızda da dövlətin sosial-iqtisadi inkişafının əsas istiqamətini sosial problemlərin həll olunması təşkil edir. Xüsusilə vurğulamaq lazımdır ki, uşaqlarla bağlı icra olunan bir sıra layihələrdə zorakılığa məruz qalan uşaqların problemlərinə həssas yanaşılır, onlara psixoloqlar və sosial işçilər lazımi dəstəyi göstərir". H.Abdullayev baxımsız və kimsəsiz yetkinlik yaşına çatmayanların sosial müdafiəsi istiqamətində nazirlik tərəfindən həyata keçirilən tədbirlər haqqında məlumatları qeyd edib. Cari ildən "Qayğı" Çağrı Mərkəzinin (116 123) fəaliyyətə başladığını diqqətə çatdıran nazir müavini Çağrı Mərkəzi vasitəsilə Agentliyin təqdim etdiyi sosial xidmətlər, o cümlədən məişət zorakılığı halları və çətin həyat şəraitində olan uşaqlarla bağlı, habelə onlayn psixoloji dəstəyin göstərilməsi ilə əlaqədar müraciətlərin cavablandırılmasının təmin olunduğunu bildirib. O əlavə edib ki, sosial rifah dövlətinin qurulması İlham Əliyevin yeni islahatlar kursunun strateji xəttini təşkil edir.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov qeyd edib ki, məişət zorakılığının qarşısının alınması istiqamətində Təhsil Nazirliyi tərəfindən atılan addımlar həm maarifləndirici tədbirlərin keçirilməsini, həm tədris proqramlarına müvafiq mövzuların daxil edilməsini, həm də yeniyetmə və gənclərə müvafiq praktiki bacarıqların aşılanmasını əhatə edir. Tədbirin əhəmiyyətini vurğulayan Daxili İşlər Nazirliyinin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili şöbəsinin rəisi Hikmət Quliyev uşaq hüquqlarının müdafiəsi, onların hərtərəfli qayğı ilə əhatə olunması, zorakılığa şərait yaradan halların aradan qaldırılmasının dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğunu qeyd edib. O, qanunvericilikdə nəzərdə tutulmuş qaydada uşaq hüquqlarının təmin olunması, onların təlim-tərbiyəsi, təhsili, sosial müdafiəsi ilə kompleks tədbirlər həyata keçirildiyini bildirib. Nazirlik tərəfindən uşaq və gənclərin radikal dini təsirlərdən qorunması, zorakılığa və qeyri-insani rəftara məruz qalması, qanunsuz fəaliyyət göstərən icmalara cəlb edilməsinin qarşısının alınması, eləcə də internet təhlükəsizliyi ilə bağlı tədbirlərin daim diqqət mərkəzində saxlandığı diqqətə çatdırılıb. Müzakirələrdə iştirak edənlər uşaqların təhlükəsizliyi və müdafiəsi, məişət zorakılığı ilə mübarizə, bu istiqamətdə qurumlararası koordinasiyanın və operativ əlaqələndirmənin gücləndirilməsi, çevik reaksiya tədbirlərinin görülməsi istiqamətində fikir və təkliflərini səsləndiriblər.

> **" İstər qadınlara qarşı zorakılıq olsun, istərsə uşaqlara, yaxud kişilərə, zorakılığın dayandırılması üçün əhalinin anlaya və davranışını dəyişə biləcək taktiki üsullar vacibdir"**

**"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova "Şərq"ə açıqlamasında istənilən müzakirənin problemlərin həllinə kömək etdiyini bildirdi:**

- Müzakirələrin aparılması dövlət qurumlarının mövcud problemlərə yanaşmada konstruktiv mövqe tutduğunu göstərir. Bir halda ki, uşaqlara, qadınlara qarşı zorakılıq halları, təəssüf ki, baş verir, deməli, hardasa boşluq var. Problem həllini tapmalıdır. Keçirilən konfransda Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova vacib bir məsələyə toxundu. Bildirdi ki, çətin həyat şəraitinə düşmüş bəzi qadın və uşaqlar haqqında şəxsi məlumatların mediada yayımlanması xoşagəlməzdir, təəssüf ki, bəzən çətin həyat şəraitinə düşmüş qadın və uşaqlar haqqında şəxsi və eləcə də dəqiq olmayan məlumatlar yayılır. Təbii ki, bəzi hallarda məsələnin dəqiqləşdirilmədən yayılmasına səbəb isə medianın rəsmi məlumat ala bilməməsidir. Ona görə də düşünürəm ki, media ilə birgə işləməklə bu kimi xoşagəlməz halların qarşısını da birlikdə almaq olar. Mən də bu fikirlə razıyam. Fərdi məlumatların yayılması ilk növbədə Azərbaycan ailə dəyərlərinə ziddir. Bu məlumatların yayılmasıyla o insanların həyat şəraiti yüngülləşmir, əksinə, ağırlaşır. Cəmiyyət olaraq çalışmalıyıq ki, çətin həyat şəraitində yaşayan, hansısa ehtiyac üzündən, yaxud bilmədiyimiz hansısa səbəblərdən ailəsindən ayrılan qadınlara, eləcə də uşaqlara dəstək olaq, onların normal yaşayışını təmin edək, ailə dəyərlərinin qorunmasına xidmət edək. Bu, sosial sahədə fəaliyyət göstərən rəsmi qurumların da, vətəndaş cəmiyyəti institutlarının da ümdə vəzifəsi olmalıdır.

*M.Zeynalova qeyd etdi ki, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə reallaşan "Labirintdən çıxış 2- Kişilər zorakılığa qarşı!" layihəsinə təşkilatın töhfəsi olaraq mahnı və klip hazırlayıblar.*

- Ümumiyyətlə, istənilən layihəyə yaradıcı yanaşma, onu quru məzmunda saxlamamaq, ona daha çox uğur əlavə etmək bizim ənənəvi bir seçimimizdir. İstənilən layihəni cəmiyyətə daha çox tanıtmaq, daha çox inandırmaq, daha uğurlu düşündürmə mexanizmini seçmək həmişə qarşımızda duran bir vəzifədir. İstər qadınlara qarşı zorakılıq olsun, istərsə uşaqlara, yaxud kişilərə, zorakılığın dayandırılması üçün əhalinin anlaya və davranışını dəyişə biləcək taktiki üsullar vacibdir. Əlaqədar qurumlar da fəaliyyətlərini həm də bu istiqamətdə qurmalıdır.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Mərkəz yenə də Tbilisi olacaq

## Narahat olmasınlar, sülh sazişindən sonra Gürcüstan indikindən daha çox iqtisadi gəlir götürəcək



**"Cənubi Qafqaz respublikalarının iqtisadi əməkdaşlığının böyük perspektivləri var. İllərdir bunun qarşısında ən böyük əngəl Ermənistanın Azərbaycan ərazisini işğal etməsi, aqressiv və düşmən tutumu idi".**

Bu sözləri ReAL Partiyasının sədr müavini Natiq Cəfərli deyib. Partiya təmsilçisi vurğulayıb ki, İkinci Qarabağ savaşından və Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının intensivləşməsindən sonra bölgədə dayanıqlı sülh üçün kövrək də olsa ümidlər yaranıb: "2021-ci ildə Gürcüstanla Azərbaycan arasında ticarət dövriyyəsi 1,1 milyard dollardan çox olub.

Ötən il Cürcüstan ilə Ermənistan arasında ticarət dövriyyəsi isə cəmi 102 milyon 614 min dollar təşkil edib. Azərbaycanla Ermənistan arasında rəsmi heç bir ticarətin olmadığını nəzərə alsaq, Cənubi Qafqaz ölkələrinin qarşılıqlı ticarət dövriyyəsi cəmi 1 milyard 200 milyon dollar civarındadır ki, bu da çox aşağı göstəricidir. Son 30 ildə Azərbaycan-Ermənistan münaqişəsindən müəyyən dividendlər götürən ölkə Gürcüstan idi. Yol və kommunikasiyaların Gürcüstandan keçməsi, Türkiyənin Ermənistana satdığı malların məhz Gürcüstan üzərindən olması əlavə dividendlər gətirirdi. Bundan başqa, Türkiyədən Azərbaycana, Orta Asiyaya, qismən də Rusiyaya gedən bütün yük maşınları Gürcüstanın "Sarp" və "Axalsıx" sərhəd-keçid məntəqələrindən Gürcüstana daxil olaraq yüzlərlə km yol qət edib Azərbaycan sərhəddinə çatır. İllərdir yol boyu həmin yük maşınlarına görə böyük infrastruktur qurulub. Kafelər, restoranlar, motel və otellər, təmir məntəqələri - yüzlərlə belə obyeklərdə minlərlə Gürcüstan vətəndaşı çalışır. Onlar həm özləri qazanır, həm də vergi ödəyicisi olaraq büdcəyə də dəstək olurdular. Xülasə, son 30 ildə Gürcüstan münaqişənin iqtisadi "benefisiarı" idi".

Ekspert bildirib ki, məhz buna görə də Gürcüstan Cənubi Qafqazda nəzərdə tutulan yeni koridorların və logistik marşrutların onların iqtisadi maraqlarına toxuna biləcəyindən çəkinirdi: "Amma çəkinmələri yersizdir, qardaş Gürcüstan Respublikası bölgənin sülh və açılım şəraitində yaşamasından indikindən daha çox iqtisadi fürsət və gəlir götürəcək. Çünki hələ uzun müddət qarşılıqlı güvən təsis olunmayacağına görə Azərbaycan və Türkiyə biznesi Ermənistan-Tbilisi üzərindən açılacaq. Mərkəz yenə də Tbilisi olacaq, narahat olmasınlar. Gürcüstan Azərbaycanın təbii iqtisadi uzantısı, dünyaya açılan qapısıdır. Bu, Zəngəzur koridorları açılandan sonra da belə qalacaq".

**N.Cəfərli hesab edir ki, ümumiyyətlə, zaman-zaman önə çıxan, sonradan unudulan "Ümumi Qafqaz Evi" ideyasının yenidən gündəmə gəlməsinin və altının doldurulması zamanıdır:** "Ermənistanın təcavüzü ötən əsrin 90-larında bu işi pozdu. Münaqişə olmasaydı, hələ ötən əsrin sonunda hər üç respublika Baltikyanı ölkələr kimi Avropa məkanına inteqrasiya ola bilərdilər. Ermənilərin düşüncəsiz və aqressiv davranışları, işğal xülyaları Cənubi Qafqazı 30 il dala saldı. Amma necə deyərlər, "gec olsun, güc olsun".

**İsmayıl**

## Kəramət Böyükçöl İstintaq idarəsinə şahid qismində çağırılıb



**Bəzi sosial şəbəkələrdə Kəramət Böyükçölün Baş Prokurorluğun İstintaq idarəsinə çağırılması ilə bağlı məlumat yayılıb.**

Bu barədə Baş Prokurorluğun Mətbuat xidmətinin açıqlamasında deyilir

"Bildiririk ki, həmin şəxs konkret cinayət işi üzrə şahid qismində dindirilməsi üçün Baş Prokurorluğun İstintaq idarəsinə dəvət olunub.

İstintaq aparıldığı dövrdə qeyd olunan bu tipli informasiyalar ətrafında sosial şəbəkələrdə müzakirələrin aparılması süni ajiotajın yaradılmasına xidmət etməklə yolverilməzdir", - açıqlamada deyilir.

## Rəsul Əliyev məsuliyyətə cəlb edilib

### Parklarda özünü polis kimi təqdim edərək pul tələb edən şəxs aşkarlanıb



**Paytaxt parklarında istirahət edən şəxslərə yaxınlaşaraq özünü polis əməliyyatçısı kimi təqdim edərək pul tələb edən şəxs müəyyən olunub.**

Daxili İşlər Nazirliyindən verilən məlumata görə, Nərimanov RPİ 18-ci Polis Şöbəsi əməkdaşlarının keçirdiyi müvafiq tədbirlərlə 1987-ci il təvəllüdlü Rəsul Əliyev tutularaq məsuliyyətə cəlb edilib.

Araşdırmalar davam etdirilir.

Onun qanunsuz əməllərindən zərərçəkən başqa şəxslər varsa bu barədə 102 - Zəng Mərkəzinə, eləcə də Nərimanov Rayon Polis İdarəsinə, yaxud 18-ci Polis Şöbəsinə müraciət etmələri xahiş olunur.




## Kreml izahat tələb edib

### Rusiya Zatulin və Simonyanın Ermənistana giriş qadağasını çaşqınlıqla qarşılayıb

**Rusiya Xarici İşlər Nazirliyi (XİN) Dövlət Dumasının ermənipərəst deputatı Konstantin Zatulin və erməni əsilli jurnalist Marqarita Simonyanın Ermənistan ərazisinə girişinə qadağa qoyulmasına münasibət bildirib.**

APA-nın Moskva müxbirinin məlumatına görə, Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə bildirib ki, bu barədə məlumatı çaşqınlıqla qarşılayıblar.

"Xatırladım ki, söhbət Dövlət Dumasının deputatı və Rusiya KİV-in baş redaktorundan gedir. Biz diplomatik kanallarla dərhal Ermənistan tərəfinə bu məlumatın rəsmi şəkildə təsdiq edilməsi və izahat verilməsi üçün müraciət etdik. Hesab edirik ki, bu məlumat təsdiqini tapacağı təqdirdə, buna müttəfiqlik münasibətlərinin xarakterinə müvafiq olaraq qiymət veriləcək. Nə vaxt ki, rəsmi cavab alacağıq, o zaman atacağımız addımları, cavabımızı müəyyən edəcəyik", - Rusiya XİN sözçüsü qeyd edib.

Zaxarova həm Zatulinin, həm də Simonyanın Rusiya-Ermənistan ikitərəfli müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsinin tərəfdarı olduğunu söyləyib: "Mənə elə gəlir ki, buna heç bir şübhə olmamalıdır. Mən heç vaxt onlardan bunun əksi olan bəyanatlar eşitməmişəm. Ona görə də, istəməzdim ki, indiki şərtlərdə, Qərbin məqsədyönlü şəkildə Cənubi Qafqazda vəziyyəti gərginləşdirməyə cəhd etdiyi dövrdə süni bəhanələr uydurulsun", o deyib.

# Zəngilanın qurtuluşundan 2 il ötür

## Bayraqlarımız hər zaman bir yerdə dalğalanacaq

**Zəngilan şəhərinin işğaldan azad edilməsinin 2 ili tamam olur. Azərbaycan Ordusunun 2020-ci il sentyabrın 27-də başladığı əks-hücum nəticəsində Zəngilan şəhəri 2020-ci il oktyabrın 20-də erməni işğalından azad edilib.**



**"Azərbaycan və Türkiyə dostluğu əbədi və sarsılmazdır"**

Qədim Azərbaycan torpağı olan Zəngilan rayonunun 20 oktyabr 1993-cü il tarixdə Ermənistan ordusu tərəfindən işğal edildiyini xatırladan Milli Məclisin deputatı, professor Kamilə Əliyevanın "Şərq"ə açıqlamasına görə, Azərbaycan Ordusu sentyabrın 27-dən başlayan döyüş əməliyyatlarının miqyasını genişləndirərək, döyüşlərin 24-cü günü Zəngilan rayonunun ərazisinə daxil olub: "Düşməni sıxışdıraraq geri çəkilməyə məcbur edən ordumuz oktyabrın 20-də Zəngilan rayonunun bir neçə yaşayış məntəqəsini işğaldan qurtarıb. Davam edən döyüşlərdə Ermənistan ordusunu Zəngilanda da ağır məğlubiyyətə uğradaraq, xeyli canlı qüvvəsini və texnikasını sıradan çıxaran Azərbaycan Ordusu 27 oktyabrda Zəngilan şəhərini işğaldan azad edib. Zəngilan rayonunun işğaldan azad edilməsi ilə Azərbaycan Ordusu Ermənistanla sərhədə çıxıb.

Zəngilan işğaldan azad edildikdən bir neçə gün sonra Qubadlı rayonu da işğaldan azad edildi və Azərbaycan Ordusunun bölmələri iki istiqamətdə, Laçın və Şuşaya doğru irəliləməyə başladı.

Mədəniyyət paytaxtımız, dünya azərbaycanlılarının qürur yeri olan Şuşa noyabrın 8-də işğaldan azad edildi və bununla da Ermənistan təslim olduğunu bəyan etdi. Zəngilanın işğaldan azad edilməsindən iki il sonra 20 oktyabr 2022-ci ildə qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın Zəngilan və Cəbrayıla səfər etməsi və Zəngilan Beynəlxalq Hava Limanının açılışında iştirak etməsi tarixi bir hadisə oldu. Vətən müharibəsinin ilk saatlarında Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Ərdoğan Türkiyənin Azərbaycanın yanında olduğunu bütün dünyaya bəyan etdi. Azərbaycanın haqq savaşında Türkiyənin bizə verdiyi siyasi və mənəvi dəstək müharibənin son gününə qədər davam etdi. Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması işində də Azərbaycan-Türkiyə birliyi göz önündədir. Türkiyə şirkətləri quruculuq işlərində yaxından iştirak edir. Türkiyə şirkətləri avtomobil və dəmir yollarının və tunellərin tikintisində Azərbaycan şirkətləri ilə çiyin-çiyinə çalışırlar".

İşğal dövründə ermənilərin şəhər və kəndlərimizi yerlə-yeksan edib, binaların daşlarını belə söküb Ermənistana daşıdıqlarını vurğulayan millət vəkili deyib ki, ermənilərin bu çirkin məqsədləri azərbaycanlıların heç vaxt bu torpaqlara qayıdıb yaşaya bilməməsinə xidmət edib: "Ermənilər unutmuşdular ki, azərbaycanlılar Vətəni, doğma torpağı öz canlarından belə əziz tuturlar. Bütün məcburi köçkünlər öz ata yurduna qayıdacaqlar. Azərbaycan dövləti işğaldan azad edilmiş bütün şəhər və kəndlərimizi yenidən quracaq. Bu işdə türk qardaşlarımız da bizimlə birlikdədir. Türkiyə Vətən müharibəsində bəzi dövlətlərin və qüvvələrin Azərbaycana qarşı təxribatının qarşısını aldı. Dünyada Türkiyə kimi qüdrətli bir dövlətin Azərbaycanla qardaş və dost olması ilə qürur duyuruq. Şuşada imzalanmış Şuşa Bəyannaməsi Azərbaycan və Türkiyəni rəsmən də müttəfiq etdi. Azərbaycan-Türkiyə dostluğu, müttəfiqliyi bölgədə sülhə, əmin-amanlığa xidmət edir. Bu gün Türkiyə dünyada söz sahibi, eləcə də güc mərkəzidir. Yaşadığımız dövrdə bir çox ölkələrdə iqtisadi, siyasi böhran hökm sürür. İnsanların durumu ağır vəziyyətdədir. Türkiyə isə bütün sahələrdə inkişaf edir. Dövlətin gücü və qüdrəti artmaqdadır. Azərbaycan və Türkiyə dostluğu əbədi və sarsılmazdır. Hər iki qardaş dövlətin - Azərbaycan və Türkiyənin bayraqları hər zaman bir yerdə dalğalanacaq".

**Şəymən**

ŞƏRQ
Müstəqil ictimai-siyasi qəzet
28 oktyabr 2022-ci il (cümə)
www.sherg.az




# “Ərdoğan güclü liderdir”

## Putin: “O, ilk növbədə öz maraqlarını qoruyur”

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan güclü lider və ölkəsinin maraqlarını rəhbər tutan etibarlı tərəfdaşdır.**

Bu sözləri Rusiya Prezidenti Vladimir Putin ”Valday” Beynəlxalq diskussiya klubunun bugünkü plenar iclasında deyib.

”O, ilk növbədə və ya bəlkə də müstəsna olaraq Türkiyənin, türk xalqının maraqlarını və Türkiyə iqtisadiyyatının maraqlarını rəhbər tutan güclü, möhkəm liderdir. Bu, onun enerji məsələlərində, ”Türk axını”nın tikintisi ilə bağlı mövqeyini böyük ölçüdə izah edir”, - deyə Putin bildirib.

Rusiya lideri əlavə edib ki, Rəcəb Tayyib Ərdoğan ilk növbədə öz maraqlarını qoruyur:

”Bu mənada ümumilikdə Türkiyə və xüsusilə də prezident Ərdoğan asan tərəfdaş deyil. Bir çox qərarlar uzun və çətin mübahisələrdə, danışıqlarda doğulur, lakin hər iki tərəfdə bu razılaşmalara nail olmaq arzusu var. Biz isə bir qayda olaraq, bu razılaşmalara nail oluruq”.

O, həmçinin qeyd edib ki, Rusiya və Türkiyənin bir çox üst-üstə düşən vektorları və qarşılıqlı maraqları mövcuddur:

”İndi biz avropalı istehlakçılar üçün Türkiyədə qaz qovşağı yaratmağı təklif etmişik. Türkiyə tərəfi də təbii ki, ilk növbədə öz maraqlarına əsaslanaraq razılaşdı”.

Qeyd edək ki, ”Valday” klubunun builki toplantı oktyabrın 24-dən 27-dək keçirilir və ”Hegemonluqdan sonrakı dünya: hamı üçün ədalət və təhlükəsizlik” mövzusuna həsr olunub.

# Suqovuşana icazəsiz daxil olmağa çalışan rayon sakini saxlanılıb




**Suqovuşan qəsəbəsi ərazisindəki nəzarət postunda rayon sakini F.Daşdəmirov müvafiq icazəsi olmadan qəsəbə ərazisinə daxil olmağa cəhd göstərdiyi üçün polis əməkdaşları tərəfindən saxlanılıb.**

Bu barədə ”Şərq”ə DİN-in Mətbuat xidmətindən bildirilib.

O, Tərtər Rayon Polis Şöbəsinə gətirilib və mülki qaydada axtarışda olduğu da müəyyən edilib.

F.Daşdəmirov barəsində İnzibati Xətalar Məcəlləsinə əsasən protokol tərtib edilib və rayon məhkəməsinin qərarı ilə cərimə olunub.

# Rusiya bu müharibədən qalib çıxa bilməz

## Zelenski də bilir ki, Rusiya ilə danışığa getsə, xalq və Qərb dairələri onu devirəcək




**Xerson istiqamətində vəziyyət Kiyev üçün xoşagəlməz istiqamətdə dəyişir. Bu barədə Ukrayna Prezident Ofisi rəhbərinin müşaviri Aleksey Arestoviç deyib. Onun sözlərinə görə, bölgədə əlavə olaraq altıya yaxın batalyon taktiki qrupu yerləşdirilib, ümumilikdə rus qüvvələrinin sayı 30 batalyon civarındadır:**

”Bu, nəhəng hərbi qüvvədir, onu darmadağın etmək çox çətin olacaq”. Rusiyanın Müdafiə naziri Sergey Şoyqu bildirib ki, Rusiya Silahlı Qüvvələri kütləvi nüvə zərbəsi endirmək üçün təlimlər keçirir. Təlim Rusiya Prezidenti Vladimir Putinin rəhbərliyi altında keçirilir. Bu arada ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) direktoru Uilyam Börns Ukrayna Prezidenti Volodimir Zelenski və digər rəsmilərlə görüşmək üçün gizli şəkildə Kiyevə səfər edib. Börns Ukraynaya Rusiya təcavüzünə qarşı mübarizədə dəstək vermək, o cümlədən kəşfiyyat məlumatlarını bölüşməyə davam etmək barədə öhdəliklərini gücləndirib.

Qvineya-Bisau Prezidenti Umaru Sissoku ukraynalı həmkarı Volodimir Zelenski ilə görüşündə Putinin danışıqlara hazır olduğunu deyib. O, iddia edib ki, Kreml rəhbəri ondan Zelenskiyə mesaj çatdırmağı xahiş edib. Lakin Kremlin mətbuat katibi Dmitri Peskov bunu yalanlayıb. Bildirib ki, Putin Zelenskiyə xüsusi mesaj çatdırmayıb.

**Politoloq Azər Rəşidoğlu ”Şərq”ə bildirib ki, perspektiv baxımdan, Rusiya məğlub olub. Əgər Qərb Ukraynaya silah verməkdə davam etsə, Rusiyanın vəziyyəti daha da kritik olacaq və ölkə iqtisadi mühasirəyə düşəcək. Analitikə görə, Rusiya bu müharibədən qalib kimi çıxa bilməz:** ”Dünya üzrə istehsalda Rusiyanın payı 1,5 faiz, Qərbin, yəni Amerikanın, Avropanın payı 50 faizdir. Qüvvələr nisbəti fərqlidir. 50 faiz payı, iqtisadi gücü olan Qərb 1,5 faiz payı olan Rusiyaya uduza bilməz. Zelenski də bilir ki, Rusiya ilə danışığa getsə, xalq və Qərb dairələri onu devirəcək. Odur ki, sona qədər mübarizə aparacaq. Qərb Rusiyanı tam diz çökdürməyənə qədər savaş davam edəcək. Lakin elə bir vəziyyət yarana bilər ki, Qərb Rusiya ilə anlaşa bilər. Bu zaman Kiyev Krımı və Şərqi Ukraynanı itirməyi gözə almalıdır. Bununla da ukraynalılar barışmayacaq və savaş hələ çox davam edəcək. Rusiyanın taktiki nüvə silahına əl atacağı istisna deyil, söhbət strateji yox, taktiki silahdan gedir. Kreml bunu etsə, özü üçün böyük problem yarada bilər və bu zaman Putinin devrilməsi qaçılmaz ola bilər”.

**İsmayıl Qocayev**

# Bakı merinin müqayisəsi qüsurludur

## Ekspert: ”Ət və çörəklə müqayisə aparanda gəlirlərə də baxsın”





**Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Xətai rayonunda yaşayan bir qrup sakinlə görüş keçirib.**

Görüşdə çıxış edən Eldar Əzizov qida məhsullarının qiymətləri ilə bağlı da danışıb: ”Əsas qida məhsulu sayılan çörəyin 1 kq-nın qiyməti Almaniya və İtaliyada 6-7 AZN-dir. İqtisadi cəhətdən çox zəif olan Ermənistanda çörək 2,5 AZN, Rusiyada 2 AZN-dirsə, Azərbaycanda bu, 1 manat 10 qəpik təşkil edir. Yumurtanın bir ədədi Rusiya və Ermənistanda 25 qəpik, Gürcüstanda 24 qəpik, Tacikistan və Moldovada 23 qəpik, Belarusda 18 qəpikdirsə, Azərbaycanda yumurta 16 qəpikdir”.

Eldar Əzizov həm də mal ətinin 1 kq-nın qiymətlər fərqindən danışıb: ”Mal ətinin 1 kq-nın qiyməti Azərbaycandan fərqli olaraq İtaliyada 2,2 dəfə, Ermənistanda 1,8 dəfə, Almaniyada 1,5 dəfə, Rusiyada 1,4 dəfə, Gürcüstanda 1,2 dəfə bahadır”.

**Bakı merinin fikirlərinə münasibət bildirən iqtisadçı-ekspert Natiq Cəfərli ”Şərq”ə deyib ki, Azərbaycanda ərzaq məhsullarının qiymətlərini Qərb, Avropa ölkələri ilə müqayisə edərkən sosial yardımları, orta aylıq əmək haqqını da nəzərə almaq lazımdır:** ”Məmurlarımız belə müqayisələr aparmağı sevirlər. Amma yarımçıq müqayisədir. Hətta MDB ölkələri ilə müqayisə aparanda gəlirlərin səviyyəsinə baxılmalıdır. Bizdə orta aylıq əməkhaqqı, təqaüd Belarusdan, Rusiyadan çox aşağıdır. Qazaxıstandan da azdır.

Bəzi ərzaq məhsullarının spesifik xüsusiyyətləri var. Azərbaycanın çörəyi Avropa, Rusiya, Belarus vətəndaşı üçün eyni çörək deyil.

Çünki bizim kulinariya, istehlak mədəniyyətimizdə çörək mühüm rol oynayır. Bu nüansa diqqət yetirmək lazımdır. Orta statistik belarus və ya rus olan 4 nəfərdən ibarət ailənin çörək istehlakı Azərbaycan orta statistik ailəsinin çörək istehlakından üç-dörd dəfə azdır.

Onlarda qiymət baha da olsa, Azərbaycana nisbətdə çörəyə az pul xərcləyirlər. Müqayisə zamanı elmi və məntiqi yanaşmalara ehtiyac duyulur”.

**Aygün Tahir**



# İstehsalçılar hər cür üsula əl atırlar

## Sosislərin üzərində “Zəfər” adına rast gəlinir

**”İstehlakçını cəlb etmək üçün məhsullara müxtəlif diqqətçəkən adlar qoyulur”.**

Bu sözləri ”Şərq”ə Azərbaycan İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov deyib.

Ekspertin sözlərinə görə, ona bu yaxınlarda analoji fakfla bağlı şikayət ünvanlanıb: ”Xarici vətəndaşlar Azərbaycanda açdıqları restoranın adını ”İkinci arvad” qoyurlar. Öyrəndik ki, başqa ölkələrdə də fəaliyyət göstərən restoranlar şəbəkəsidir. İndi də Azərbaycanda edirlər.

Biznes sahibləri, istehsalçılar alıcı cəlb etmək üçün hər cür fəndlərə əl atırlar. ”Zəfər” adı ilə sosislərin satışa çıxarılması da bu baxımdan normaldır. Lakin başqa istehsalçı adı mənimsəməsin deyə onu dövlət qeydiyyatına aldırmaq məqsədəuyğundur”.

*Qeyd edək ki, 44 günlük İkinci Qarabağ müharibəsinin Azərbaycanın qələbəsi ilə başa çatması və 8 noyabrın Zəfər günü kimi elan olunmasından sonra ”Zəfər” ismi xeyli artıb. Artıq hətta sosislərin üzərində belə sözügedən ada rast gəlirik.*

**Sücayət Mehti**

# Ət yeməklərindən imtina etmək olmaz



**Füzuli Hüseynov:** "Bu gün ən çox əks-təbliğat qırmızı ət üstündə qurulub"

**Adil Qeybulla:** "Bəzi insanlar çox qida qəbul etdikləri üçün doyma hissini itirirlər"

**Son vaxtlarda qırmızı ətin ziyanı barədə həm yerli, həm də dünya mətbuatında çoxsaylı informasiyalar yayılmaqdadır. Ekspertlər qırmızı əti risk daşıyan qida siyahısına salaraq onu arsen, alkoqol və asbest maddələri ilə müqayisə edirlər.**

Ən əsası xərçəng xəstəliyinin son illərdə dünyada geniş vüsət almasının səbəblərindən biri kimi qırmızı ət də göstərilir. Ümumdünya Səhiyyə Təşkilatının bəyanatına görə, gün ərzində 50 qram qırmızı ət məhsulunun qəbulu bağırsaq xərçəngi riskini 18 faiz artırır. Azərbaycan kulinariyasında isə ət yeməkləri vazkeçilməz qidalardan biridir və çox istifadə olunur. Məsələn, yağlı qoyun ətindən hazırlanan yeməklər, kabablar bir çoxumuzun qida rasionumuzdan çıxarda bilməyəcəyimiz təamlardır.

Türkiyəli həkim Canan Karatay əti közləmə bişirməyi tövsiyə edir. Onun sözlərinə görə, əti düzgün bişirmədikdə faydalı maddələri itir: "Ət soyuducudan çıxarıldıqdan sonra bir müddət saxlanılmalı və manqalda bişirildikdən sonra ona duz səpilməlidir. Tava kabablarında darçın və ya mixək istifadə edilə bilər. Qara istiot istənilən ətə yaxşı dad verir. Saxsı qablarda ət az yağ əlavə edilərək vam odda heç bir su əlavə olunmadan, buraxdığı su çəkilənə qədər bişirilir. Ətin rəngi tündləşməməlidir. Ət əgər tək bişirilirsə ona çox az isti su əlavə edilməlidir. Duzunu isə öncədən atmaq olmaz, çünki duz onu sərtləşdirəcək.

Proteini artırmaq üçün ətə müxtəlif tərəvəzlər (kərəviz, kök, soğan, sarımsaq və.s.) əlavə edə bilərsiniz. Ətlər sobada tərəvəzlə birgə bişirilərsə həm yumşaq olar, həm də vitaminlərini itirməz. Ən düzgün bişirilməsi də yağsız sobada bişirməkdir.

**Fitoterapevt-həkim Füzuli Hüseynov isə ət əleyhinə kampaniyaların maraqlı qüvvələrə xidmət etdiyini deyib. Bu gün dünyada ət əleyhinə misilsiz bir kampaniya başlayıb, hətta bəzi elm adamlarımız fəxrlə "mən ət yemirəm" deyir və geniş təbliğat aparırlar, amma onların hamısı ət yeyir:** "İnsan bədəninin təməl daşları amin turşularıdır. Amin turşuları bizim məhv olmuş toxumalarımızın yenilənməsində və yeni hüceyrələrin əmələ gəlməsində iştirak edirlər. Amin turşular zülallardan əmələ gəlir, deməli, bizim orqanizmimizə zülallar çox lazımdır, zülalların isə əsas mənbəyi ətdir. Ət orqanizm üçün ən faydalı qidadır. Deyə bilərsiniz ki, zülallar bitkilərdə, əsasən ləpəlilərdə də var. Amma bitkilərdəki zülallar heyvani zülallar qədər tam parçalanmır. Əgər insan uzun müddət ət yeməzsə və bədənin tələb etdiyi zülalları bitkilərdən alarsa, onda həmin insanda ödemlər (şişmələr) əmələ gələcəkdir, bunun səbəbi də bitki zülallarının natamam parçalanması və mənimsənilə bilməməsidir".

Həkimin sözlərinə görə, ətin tərkibində dəmir, sink, fosfor, kalium, kalsium və s. minerallar vardır. Həmin minerallar bitkilərin də tərkibində var, lakin liflərlə birgə olduğundan ət qədər sorula bilmir: "Bu gün ən çox əks-təbliğat qırmızı ət üstündə qurulub, yəni qoyun və mal ətləri. Əgər insan qırmızı ət yeməzsə, onda güclü əzələ qıcolmaları baş verəcək. Bu isə qanın birdən-birə sürətlə beyinə yüksək təzyiqlə axması ilə nəticələnəcək, sonda beyin hüceyrələrinin məhv olmasına səbəb olacaq. Ən son araşdırmaların nəticəsini nəzərinizə çatdırıram: heyvani mənşəli yağlar beynimizdə dövr edən qanın sürətini tənzimləyir. Ətin tərkibindəki yağların 96 faizi, zülalların isə 95 faizi yavaş-yavaş sorulur. Mədəyə düşmüş ət gec sorulduğundan bizim uzun zaman tox qalmamıza səbəb olur. Hər bir şeyin bir norması olduğu kimi aşırı miqdarda ət yeməyin də fəsadları var. Ətin tərkibində lif yoxdur, buna görə də çox ət yeyən insanlarda qəbizlik halları olur, həmçinin şəkərə və təzyiq xəstəliyinə tutulma riski çoxdur".

**Tibb elmləri doktoru, professor Adil Qeybulla isə "Şərq"ə ət yeməklərinin qəbulunun müəyyən məhdudiyyətlərlə olmasının vacib olduğunu deyib:** "Doymamış yağ və əvəzolunmaz amin turşularının çoxu bədəndə istehsal olunmur. Bunlar ancaq xaricdən alınmalıdır. Yəni ancaq qida vasitəsi ilə bədənə daxil olmalıdır. Heyvan mənşəli və bitki mənşəli zülallar var. Sadəcə olaraq, ət yeməklərinin qəbulu müəyyən məhdudiyyətlərlə olmalıdır. Bizim qəbul etdiyimiz ət qidası orqanizmin tələbatından qat-qat artıqdır. Bəzi insanlar çox qida qəbul etdikləri üçün doyma hissini itirirlər və nəticədə qida həmin adamın ziyanına işləyir. Ona görə də qida qəbulunu kifayət qədər məhdudlaşdırmaq lazımdır. Birdəfəlik ət qidalarından imtina düzgün deyil. Onların tərkibində əvəz olunmayan amin turşuları orqanizm üçün vacibdir. Ona görə də arıqlamaq məqsədi ilə və ya uzun müddət aclıq keçirənlərdə psixi dəyişikliklərin olması da bəzən bununla izah olunur. Biz adekvat qidalanmalıyıq. Adekvat qidalanma da insanlar qidalanma mədəniyyətinə uyğun olaraq həddən ziyadə olmamaq şərti ilə normal, insanın aktiv hərəkətinə mane olmayacaq dərəcədə qida qəbulu yetərlidir".

**Şəymən**



## Sayıqlığı əldən vermək olmaz

Təyyar Eyvazov: "Risk qrupuna daxil olan insanların vaksinasiya prosesini tamamlaması arzuolunandır"

**"Pandemiya ilə mübarizədə əldə edilmiş nailiyyətləri qorumaq üçün, xüsusən risk qrupuna daxil olan insanların vaksinasiya prosesini tamamlaması arzuolunandır".**

Bunu "Report"a Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti infeksionist Təyyar Eyvazov deyib.

O xatırladıb ki, Ümumdünya Səhiyyə Təşkilatı 2020-ci ilin mart ayında yeni koronavirus infeksiyasını ictimai səhiyyədə beynəlxalq əhəmiyyətli fövqəladə hal kimi dəyərləndirib:

"İndiyədək bu qərar qüvvəsini saxlamaqdadır. Bu, o deməkdir ki, beynəlxalq ekspertlər hələ də təhlükənin tam bitmədiyini göz önünə alırlar. Hazırda Azərbaycanda epidemioloji durum xeyli qənaətbəxşdir, infeksiyaya yeni yoluxmalar və aktiv xəstələrin sayı minimaldır. Əhalidə pandemiya ilə bağlı stress vəziyyəti artıq qeyd olunmur. Bu müsbət hal olsa da müəyyən qədər arxayınlıq yaradır. Qarşıdan soyuq aylar gəlir və bu aylarda bir sıra respirator viruslar, o cümlədən qrip infeksiyası baş qaldırır. Həm koronavirus, həm də hava-damcı üsulu ilə yayılan digər kəskin respirator virus infeksiyalarından qorunmaq tədbirləri eynidir. Ona görə də sayıqlığı əldən verməyərək başa düşməliyik ki, istənilən halda bu qoruyucu tədbirlərə riayət etmək bizləri bütün bu xoşagəlməz yoluxma və xəstələnmə hallarından qoruyar. Koronavirus infeksiyasının bu gün səngiməsi əhalidə kollektiv immunitetin formalaşması ilə bağlıdır. Bu immunitet həm xəstəliyi keçirməklə, həm də vaksinasiya nəticəsində formalaşır. Lakin vaksin olunanların sayı xəstəliyi keçirənlərdən qat-qat çoxdur. Bununla belə qazanılmış bu immunitet zaman keçdikcə zəifləyir. Pandemiya ilə mübarizədə əldə edilmiş nailiyyətləri qorumaq üçün, xüsusən risk qrupuna daxil olan insanların vaksinasiya prosesini tamamlaması arzuolunandır".



## Dərmanı yarı bölüb içmək olmaz

**Hansı hallarda dərmanı bölüb içmək olar?**

Bəzi xəstələr bunu qənaət, bəziləri qorxduğu, bəziləri isə dərmanın əlavə zərərini azaltmaq, yarı tabletlə heç nə olmaz deyərək bölür.

"Medicina" xəbər verir ki, farnakologiya üzrə dosent Olqa Stenapova dərmanı bölüb içməyin mümkünlüyündən danışıb.

"Bəzən pasiyentləri çaşdıran məqam həbin ortasında bölünmə xəttinin olmasıdır. Əslində isə bu yalnız dizayn üçündür.

Dərman aşağıdakı hallarda bölünə bilər.

- Yazılan doza aptekdə satılan dozadan aşağıdır. Aptekdə 100 mq doza var, reseptdə həkim 50 mq yazıb. O zaman bölünür.
- tabletin ölçüsü çox böyükdür, udmaqda problem var.

Adətən uşaqlar, ağır xəstələr və yaşlılar belə edir.

- Bəzi sinir, sakitləşdirici dərmanlar, antidepressantlar, yuxu dərmanları, neyroleptikləri dozanı azaltmaqla kəsirlər.
- qənaət məqsədilə böyük dozalı preparatları 2-3 yerə bölmək olar. Amma bu hər dərmanla edilmir.

# Koronavirusun ölümcül variantları yarana bilər

ÜST rəhbəri: "Yaşlı insanların təxminən üçdə ikisi koronavirus əleyhinə peyvənd olunmayıb"

**Planetin əhalisinin təxminən üçdəbiri hələ də COVID-19 əleyhinə bir dənə də olsun peyvənd almayıb.**



Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru (ÜST) Tedros Adhanom Qebreyesus Seulda keçirilən Beynəlxalq biosammitdə bildirib.

O, koronavirusun yeni, daha təhlükəli və ölümcül variantlarının peyda olunması təhlükəsinin real olduğunu bəyan edib. Bildirib ki, dünyada vaksinasiyaya bərabər çıxışın olmaması pandemiyaya qlobal reaksiyanı sarsıdıb.

Baş direktor deyib ki, aşağı gəlirli ölkələrdə səhiyyə işçilərinin yarısından çoxu və yaşlı insanların təxminən üçdə ikisi koronavirus əleyhinə peyvənd olunmayıb. Tedros əlavə edib ki, "vaksinasiyadakı fərq qlobal bəpanı təhdid edir və hər kəsi risk altına salır". Koronavirusun yeni, daha təhlükəli və ölümcül variantlarının peyda olunması təhlükəsinin real olduğunu bildirən baş direktor "Biz bu pandemiyadan nəticə çıxarmalıyıq" deyib.

Tedros Adhanom Qebreyesus hesab edir ki, ən vacib nəticələrdən biri vaksinlər və müalicə vasitələrinin istehsalının coğrafiyasının genişləndirilməsi zərurətidir. "Çünki pandemiya göstərib ki, hazırda belə imkanlara yalnız az sayda ölkələr malikdir. Növbəti nəsil vaksinləri, terapevtik vasitələr və diaqnostika alətləri gələcək pandemiyalara cavab vermək üçün olduqca mühüm əhəmiyyət kəsb edəcək", - deyə Qebreyesus vurğulayıb.

ÜST-nin dəstəyi ilə təşkil olunan Beynəlxalq biosammit, oktyabrın 25-də və 26-da Seulda keçirilib.

# Gələn il Şuşada beynəlxalq "Dədə Qorqud" film festivalı keçiriləcək

## "Bu, ortaq irsimizin birgə istehsala çevrilməsinə zəmin yaradacaq"



**Gələn il Şuşada beynəlxalq "Korkut Ata" ("Dədə Qorqud") türk dünyası film festivalı keçiriləcək. "Report" Türkiyə mətbuatına istinadən xəbər verir ki, bu barədə ölkənin mədəniyyət və turizm nazirinin müavini Əhməd Misbah Dəmircan bildirib.**

"Festival çərçivəsində ortaq istehsal üçün zəmin yaratmağı, müsabiqə çərçivəsində yeni filmlərin mükafatlandırılmasını və türk respublikalarının nazirlərini bir araya gətirməyi qarşımıza məqsəd qoymuşuq. (Bu il-red) Türk dünyasının mədəniyyət paytaxtı Bursada təşkil etdiyimiz üçüncü festivalı gələn il Azərbaycanın Şuşa şəhərində keçirəcəyik. Bu, ortaq irsimizin birgə istehsala çevrilməsinə zəmin yaradacaq", - nazir müavini bildirib.

Qeyd edək ki, Bursa şəhərində bu il ikinci dəfə 1-5 noyabr tarixlərində keçiriləcək "Korkut Ata Türk Dünyası Film Festivalı"na hazırlıqlar davam edir.

Festivalın dünən keçirilən təqdimat mərasimində çıxış edən Əhməd Misbah Dəmircan nazirlik olaraq maddi və qeyri-maddi mədəni irsin yaşadılması, qorunması və gələcək nəsillərə təhvil verilməsi üçün çalışdıqlarını bildirib.

Bursa Böyükşəhər Bələdiyyəsi də daxil olmaqla bir çox qurum və təşkilatların dəstəyi ilə Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin himayəsi altında təşkil ediləcək festival türk respublikalarından və toplumlarından bir çox peşəkar kino xadimlərini və mədəniyyət xadimlərini bir araya gətirəcək.

Festivalda Azərbaycandan 22, Özbəkistandan 43, Qırğızıstandan 23, Qazaxıstandan 21, Türkmənistandan 5 və muxtar respublikalardan 17 kino mütəxəssisi iştirak edəcək. Festivalda türk kino sənayesinin tanınmış prodüserləri, rejissorları, ssenaristləri və aktyorlarından ibarət 200-ə yaxın qonaq iştirak edəcək.



## Ali Məhkəmə Afət Fərmanqızının axtarışı ilə bağlı qərar verib

**Müğənni Afət Fərmanqızı barəsində axtarış elan edilməsi ilə bağlı qərardan verilmiş kassasiya şikayətinə baxılıb.**

APA xəbər verir ki, Ali Məhkəmədə hakim İlkin Rəcəbovun sədrliyi ilə baxılan iş üzrə qərar elan edilib. Qərara əsasən, şikayət əsassız hesab olunaraq rədd edilib. Afət Fərmanqızı barəsində axtarış qərarı qüvvədə qalıb. Xalq artisti Flora Kərimovanın vəkili Xavər Həsənova APA-ya məlumatı təsdiq edib.

*Qeyd edək ki, Xalq artisti Flora Kərimova müğənni Afət Fərmanqızı barəsində xüsusi ittiham qaydasında məhkəməyə müraciət edib. İş Binəqədi Rayon Məhkəməsində hakim Mahirə Kərimovanın icraatına verilib. Müğənni Afət Fərmanqızı məhkəməyə gəlmədiyi üçün cinayət işi üzrə icraat müvəqqəti dayandırılıb və onun barəsində həbssiz axtarış elan olunub.*

**Elan**

Ağşeron r-nu, Masazır qəsəbəsi, Qurtuluş 93, bina 62, m. 41 ünvanında yaşayan Bağırzadə Qasım Xəlil oğluna məxsus evin müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Manafov Məmməd Şirin oğluna məxsus şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.



## "Ailələr sosial şəbəkəyə görə dağılır"

### Xatun Əliyeva: "Hər şeyi kişilərin boynuna atırıq"

**"İndiki dövrdə qadınlarda sevgi qalmayıb. Kişilərdə sevgi var".**

Bu sözləri müğənni Xatun Əliyeva "Elgizlə izlə" proqramında deyib. Sənətçi ailələrin dağılmasında qadınları günahkar gördüyünü bildirib:

"Hər şeyi kişilərin boynuna atırıq. İndi sosial şəbəkə inkişaf edib. Qadın baxır filankəs getdi Bodruma, Antalyaya. Gəlib kasıb ərdən onu tələb edir. Ailədə problem yaranır, kişi bədbəxt olur. Fikirləşir ki, ailəmi saxlaya bilmirəm. Beləcə, ailələr dağılır".

# "Hacı xanım 100 min manat pul göndərib"

## Könül Xasıyeva xeyirxahın adını açıqlamadı



**Xalq artisti Könül Xasıyeva bir müddət əvvəl boğazında şiş aşkarlandığını və müalicə üçün 254 min manata ehtiyacı olduğunu açıqlayıb.**

Xanəndə bunun üçün sosial şəbəkədə müraciət ünvanlayıb, sənət adamlarını işarələyərək, ona yardım etmələrini istəyib.

Xasıyeva onun çağırışına Əməkdar artist Yusif Mustafayevin reaksiya verdiyini açıqlayıb. O bildirib ki, müğənni ona müalicəsi üçün min dollar (1700 manat) göndərib. Muğam ifaçısı həmçinin adını açıqlamadığı bir xanımın onun müalicəsi üçün böyük məbləğdə pul bağışladığını söyləyib:

"Sənətimi sevən hacı xanım 100 min manat pul göndərib. Sonsuz təşəkkür edirəm. Ümid edirəm ki, gec olmadan sənətimi sevən dəyərli dostlarım 155.000 azn üçün də dəstək olacaqlar".

Könül Xasıyeva yardım üçün hesab nömrəsini də paylaşıb:

*Qeyd edək ki, xanəndənin müalicəsi Almaniyada olacaq.*

## Mələkxanım Əyyubovanın yaradıcılıq gecəsi keçiriləcək



**Oktyabrın 28-də Beynəlxalq Muğam Mərkəzində AMEA Folklor İnstitutunun və Xan Şuşinski Fondunun birgə iştirakı ilə Xalq artisti, professor Mələkxanım Eyubovanın yaradıcılıq gecəsi keçiriləcək.**

Axşam.az xəbər verir ki, gecədə tanınmış mədəniyyət və elm xadimləri iştirak edəcəklər.

Təntənəli gecədə incəsənət ustaları Xalq artistin repertuarından mahnılar ifa edəcək.

# "Nar" abunəçiləri eSIM-lə rəqəmsal rahatlığı seçir

**Azərbaycanda ilk dəfə "Nar" tərəfindən üztanıma texnologiyası ilə təqdim olunan eSIM xidmətindən yararlanan abunəçilərin sayı artmağa davam edir.**




Tamamilə onlayn şəkildə xidmətə qoşulma imkanı sayəsində son 1 ay müddətində rəqəmsal nömrəsini aktivləşdirən abunəçilərin sayı 24% artıb. Mobil operatorun verdiyi məlumata görə qoşulan cihazlar arasında liderlik iPhone və Samsung markalı telefonların payına düşür.

Xatırladaq ki, plastik SIM kartlardan fərqli olaraq, eSIM nömrənin zədələnməsi, itməsi hallarını və ya nömrə dublikatı üçün müştəri xidmətlərinə yaxınlaşma zərurətini aradan qaldırır, eləcə də təkkartlı telefonlarda belə bir neçə nömrənin istifadəsini mümkün edir. Cihazınızın eSIM texnologiyasını dəstəklədiyindən əmin olmaq üçün *#06# kodunu yığın. eSIM nömrəni heç yerə getmədən esim.nar.az səhifəsindən rahat şəkildə əldə etmək mümkündür.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:

Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 3072



# Bu il Azərbaycandan iki min başa yaxın at ixrac olunub

**Bu il Azərbaycandan 1980 baş at ixrac olunub.**

Bunu Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli keçirdiyi mətbuat konfransında deyib.

Onun sözlərinə görə, Azərbaycan artıq atlar arasında manqo xəstəliyindən azad status əldə edib:

"Əvvəl bu xəstəliklə əlaqədar atların ixracına icazə verilmirdi",- deyə o, qeyd edib.

# İlon Mask "Twitter"i aldı

Onun sosial şəbəkə üçün nə qədər pul ödədiyi isə hələlik bəlli deyil



**"SpaceX" və "Tesla" şirkətlərinin qurucusu İlon Mask "Twitter"i alıb.**

Axşam.az xəbər verir ki, bu barədə o, sosial şəbəkədə məlumat verib.

Qeyd edək ki, dünən Maskın "Twitter"in binasına maraqlı girişi diqqət çəkmişdi. Milyarder əlində əlüzyuyanla binaya daxil olmuşdu.

Bundan başqa iş adamının rəsmi hesabında "Twitterin rəhbəri" deyə, yazılması onun platformanı rəsmi şəkildə alması kimi qəbul edilmişdi.

Onun sosial şəbəkəni almaq üçün nə qədər pul ödədiyi isə hələlik bəlli deyil.

# Alimlər 500 qadını sorğuya alıb

## İnfarktdan sağ çıxanlar 1 ay əvvəl nə hiss etdiklərini açıqlayıb



**İnfakrtdan sağalanlar 1 ay əvvəldən hansı simptomları hiss etdiklərini xatırlayıb.**

**"Medicina" xəbər verir ki, alimlər 500 qadını sorğuya alıb.**

**"Ürək tutması qəfil baş verə bilər. Bu zaman sinədə dəhşətli ağrı, sancı, nəfəs darlığı olur.**

**Lakin xəstələrin 95%-i tutmadan öncə dəyişiklik hiss ediblər. Onlar infakrtdan 1 ay öncə özlərində qəribə gücsüzlük hiss etdiklərini deyib. Bəzi qadınlarda ciddi yuxu pozulması baş verib.**

**Onlar o qədər yorğun olub ki, səhər yataqlarını yığışdırmağa belə güc tapmayıblar. Siyahıda zəiflik, yapışqanlı tər, ürəkbulanma, başgicəllənmə də var. 70% qadınlar həddən artıq yorğunluq, yuxu pozulması yaşayıb.**

**Bu əlamətlərə vaxtında diqqət edilsə, geniş ürək infarktının qarşısı alınardı".**

# Məşhur cütlük övladlarının doğulduğunu gizlədir



**Məşhur aktyor Tom Hiddlston ata olub.**

**Axşam.az xəbər verir ki, aktyorla nişanlısı aktrisa Zavi Eştonun övladı dünyaya gəlib. Cütlük məsələ ilə bağlı açıqlama verməməklə yanaşı körpənin cinsiyyətini və adını gizli saxlayıb.**

***Qeyd edək ki, cütlük 2019-cu ildə "Xəyanət" filminin çəkilişlərində tanış olub. Bir müddət əvvəl Tom müsahibəsi zamanı Zavi ilə nişanlandığını təsdiqləyib.***





# Gözəl təbiət...

## Gərgin iş rejimi və şəhər həyatı sizi sıxırsa, baş vurun!"

**Beton bloklarla əhatə olunmuş mənzərə, gərgin iş rejimi və şəhər həyatı... Bəlkə də ən yaxşı həll bütün bu xaosdan uzaq durub təbiətlə yenidən əlaqə saxlamaq və daxili dincliyə çatmaqdır. Təbiətlə münasibətinizi gücləndirmək üçün bir çox üsullar var. Onlarla tanış olun...**

Təbiətlə birləşmək üçün meşəyə gedə və ya göl kənarındakı mənzərədən həzz ala bilərsiniz. Ancaq hələ də əlinizdə telefon varsa və müasir həyatın məsuliyyətləri sizi buraxmırsa, təbiətin gözəlliklərini qiymətləndirmək mümkün deyil. Hər şeyi atın. Bir müddət fikrinizi kənara qoymağa çalışın. Quşların nəğməsinə qulaq asın və ağacların qoxusunu içinizə çəkin.

Əminik ki, dinclik tapmaq üçün qaçdığınız bir çox müxtəlif yerlər var. Bu dəfə dəyişiklik edin və heç vaxt olmadığınız yeri kəşf edin. Müxtəlif yaşıl sahələr zehninizi və bədəninizi təmizləməyə kömək edəcək.

### Yaradıcılıq və təbiət birlikdə

Təbiətə bir neçə formada inteqrasiya etmək mümkündür. Bu yollardan biri təbiətlə təmasda olduğunuz zaman yaradıcılığınızı ortaya çıxarmaqdır. Şəkillər çəkməyə, və ya kömür işi görməyə çalışın.

### Kitab oxumaq

Təbiətlə bağlarınızı gücləndirmək üçün şəhər həyatından uzaqlaşmağınız mümkün olmaya bilər. Evinizin rahatlığında təbiət haqqında kitablar oxumağa çalışın. Bitkilər haqqında kitab və ya meşədə macəraya gedən bir qrup gəncin hekayəsi sizi təbiətə bir az da yaxınlaşdıra bilər.

### Günəş doğumu için içirmək

Təbiətin möcüzələrini dərindən hiss etmək üçün bəzi anların şahidi olmağa çalışın. Bir fincan qəhvə götürün və günün batmasını seyr etməyə gedin. Əgər səhəri sevirsinizsə, günəşin doğuşunu da izləyə bilərsiniz.

### Bitkiləri, çiçəkləri öyrənin

Təbiətdən qopduğunuzu hiss edirsinizsə, imkan daxilində şəhər həyatından təbii həyat haqqında məlumat almağa çalışın. Gündəlik həyatınızda rastlaşdığı-



nız bitkilərin, ağacların və çiçəklərin adlarını öyrənməklə başlaya bilərsiniz.

### Təbiət dostu tapın

Təbiətdəki kiçik kəşflərinizdə yanınızda bir dostunuz olması sizi daha təhlükəsiz və rahat hiss etdirə bilər. Birlikdə edə biləcəyiniz fəaliyyətləri seçin, marşrutlar təyin edin və təbiətin gözəlliklərini birlikdə qiymətləndirin.

### Fərqli gəzinti

Hər gün eyni nəqliyyat vasitəsi ilə yerlərə çatmağa çalışırıq. Hətta yeni yerə getdiyimiz zaman da naviqasiyadan asılıyıq. Hər gün getdiyiniz yolu alternativ yollarla yeniləyin. Daha yaşıl və daha dinc bir yola rast gələ bilərsiniz.

**Turan**



# Qan damarlarını iflic edir

## Elektron siqaretlər epidemiyaya çevrilib

**ABŞ-da aparılan yeni araşdırmalar nəticəsində məlum olub ki, elektron siqaretlər siqaret çəkmək kimi qan damarlarına zərər verir. Mütəxəssislər istifadəsi artan elektron siqaretlər üçün "Epidemiyaya çevrildi" ifadəsini işlədirlər.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, elektron siqaret çəkənlərin ürək xəstəliyi riski siqaret çəkənlərlə eynidir.

Bu qərara alimlər ABŞ-da aparılan yeni bir araşdırmadan sonra gəliblər. İnsanlar və siçanlar üzərində aparılan tədqiqat nəticəsində məlum olub ki, elektron siqaretlər tütün çəkənlər kimi qan damarlarına zərər verir.

Siqaret və elektron siqaretdən eyni vaxtda istifadə daha çox zərər verir.

Qan damarları zədələndikdə və ya düzgün işləmədikdə, qanda olan oksigenin ürəyə və bədənə çatması çətinləşir.

Məlumata görə, siqaret və elektron siqaretdən istifadə damar və orqan funksiyalarının tənzimlənməsində rol oynayan endotel funksiyasını pozur.

Bu vəziyyət böyük qan damarlarının ürək və digər toxumaları kifayət qədər qanla təmin etmək üçün kifayət qədər açılmamasına səbəb olur.

Qeyd olunur ki, endotel hüceyrələrinin zədələnməsi hipertoniya və koronar arteriya xəstəliyi kimi çoxsaylı ürək-damar problemlərinə səbəb olur.

Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzlərinin bildirdiyinə görə, son 30 gündə 2,5 milyondan çox orta məktəb və ya lisey şagirdi elektron siqaret cihazından istifadə etdiyini etiraf edib.



**Son 1 ayda 2,5 milyondan çox orta məktəb və ya lisey şagirdi elektron siqaretdən istifadə etdiyini etiraf edib**

Məlumatlara görə, ABŞ-da böyüklərin təxminən 10 faizi elektron siqaretdən istifadə edir.

Tədqiqat elektron siqaretlərin tütünə risksiz alternativ olmadığına dair əlavə sübutlar təqdim edirlər.

**Turan**